RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 275 (9730) 13 dekabr 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Əbədi ehtiramla



## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər









**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 21 il ötür.**

AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət ediblər. Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini ehtiramla andılar, məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

## Birinci vitse-prezident Mehriban Əliyeva Ulu Öndərin anım günü ilə əlaqədar paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi sosial şəbəkə hesablarında Ulu Öndər Heydər Əliyevin anım günü ilə əlaqədar foto paylaşıb.

## Bayden Administrasiyası son günlərində də qərəzindən əl çəkmir

### Blinken Azərbaycana qarşı riyakar bəyanatı ilə erməni dəyirmanına su tökmək üçün sonuncu cəhdini etdi

ABŞ Dövlət katibinin ölkəmizə qarşı sərgilədiyi bu davranış Amerika-Azərbaycan münasibətlərinə zərbə olmaqla yanaşı, Vaşinqtonun regionla bağlı düzgün siyasət yürüdə bilmədiyini də ortaya qoydu. 44 günlük Vətən müharibəsində qələbə qazanması və suverenliyini tam təmin etməsi ilə Cənubi Qafqazda reallıqları dəyişən Azərbaycanla münasibətlər yaxşı olmadan bu coğrafiyada hansısa iş görməyin mümkünsüzlüyünü Blinkenin bilmədiyini düşünmək belə yersizdir. Ancaq təəssüf ki, bəzən şəxsi ambisiyalar dövlət maraqlarından üstün olur.

Fəaliyyət göstərdiyi dörd il ərzində ABŞ Dövlət Departamentini erməni lobbisinin maraqlarına xidmət edən maşaya çevirən Blinken açıq şəkildə Azərbaycana qarşı düşmənçilik siyasəti həyata keçirib.

Ölkəmizin COP29 kimi qlobal tədbirə evsahibliyi edəcəyi günlər ərəfəsində 60-a yaxın ermənipərəst konqresmenin ABŞ dövlət katibinə müraciət edərək Azərbaycana qarşı sanksiyaların tətbiqi kimi məsələləri gündəmə gətirmələri də təsadüfi olmayıb.

→ 7

## İstefalar Ermənistanı xaosa sürükləyir

Ermənistanda istefa zəncirinin növbəti halqası isə iqtisadiyyat nazirinin müavini Narek Teryan olub. Teryan da tutduğu vəzifədən istefa ərizəsi yazıb. O, 2021-ci ilin aprelində baş nazir Nikol Paşinyanın qərarı ilə iqtisadiyyat nazirinin müavini təyin edilmişdi.

Bu günlərdə Ermənistan parlamentində elektrik təchizatı ilə bağlı dinləmələr keçirilib və bu sektora cavabdeh şəxslər kəskin tənqid edilib. Ermənistan parlamentinin deputatı Akop Aslanyan hakim "Mülki müqavilə" fraksiyasından xaric edilib.

Fraksiyanın katibi Artur Ovannisyan bildirib ki, dekabrın 11-də A.Aslanyan keçmiş fraksiya həmkarı Ovik Ağazaryanın məhkəməsi ilə əlaqədar "Mülki müqavilə" fraksiyasında iştirakını bir ay müddətinə dayandırdığını bəyan edib. O, sosial şəbəkədəki səhifəsində bəyanatın skrinşotunu yerləşdirərək, partiya ilə əməkdaşlığı "dondurmaq" qərarının səhv olduğunu bildirib. Eyni zamanda skrinşotda mətnin ona Ermənistanın yüksək texnologiyalı sənaye naziri Mxitar Ayrapetyan tərəfindən göndərildiyi görünür.

"Cənab Aslanyan fraksiya və partiyanın nizamnaməsini pozduğuna görə uzaqlaşdırılıb (xaric edilib - red.). Bu gün verdiyi açıqlamaları gördünüz. Fraksiyanın qərarı ilə xaric edildi" - bunu partiyanın katibi deyib.

Ovannisyan qeyd edib ki, fraksiyadan xaric edilən digər deputat Ovik Ağazaryan iclaslardan məlumatların "sızmasını" təşkil edib. Deputatın nöqteyi-nəzərindən Ağazaryanı müdafiə etmək cəhdləri də analoji sonluqla (yəni fraksiyadan kənarlaşdırılma - red.) yekunlaşmalı idi.

A.Aslanyanın partiyadan çıxarılması məsələsi "Mülki müqavilə"nin İdarə Heyətində müzakirə olunacaq. Deputat mandatının təhvil verilməsinə gəlincə, Ovannisyan qeyd edib ki, Aslanyan hələlik qərarını açıqlamayıb. Fraksiya katibinin sözlərinə görə, A.Aslanyan çox güman ki, deputat mandatından imtina etmək istəmir.

→ 8

# Baş nazir Əli Əsədov Moskvada Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib





Dekabrın 12-də Rusiya Federasiyasında işgüzar səfərdə olan Baş nazir Əli Əsədov Azərbaycanın Moskvadakı səfirliyinin binasında olub.

AZƏRTAC xəbər verir ki, Baş nazir Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin büstü önünə gül dəstələri qoyub.





# Baş nazir Əli Əsədov Moskvada MDB Hökumət Başçıları Şurasının iclasında iştirak edib




Dekabrın 12-də Rusiya Federasiyasının paytaxtı Moskvada Müstəqil Dövlətlər Birliyinin (MDB) Hökumət Başçıları Şurasının iclası keçirilib. Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iclasda iştirak edib.

AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən Azərbaycanın Baş naziri Rusiyanı cari ildə MDB-də uğurlu sədrliyi münasibətilə təbrik edib, həmçinin 2025-ci ildə quruma sədrlikdə Tacikistana uğurlar arzulayıb.

Ə.Əsədov əməkdaşlığın müxtəlif istiqamətləri, o cümlədən iqtisadiyyat, nəqliyyat və humanitar sahələr, maliyyə və büdcə mövzuları üzrə 20-yə yaxın bəndin daxil olduğu iclasın gündəliyində duran məsələlərin əhəmiyyətinə diqqət çəkib.

Xüsusilə iclasın yekunu üzrə təsdiq olunacaq 2025-2026-cı illər üçün Humanitar əməkdaşlıq sahəsində Prioritet Tədbirlər Planının əhəmiyyəti qeyd edilib.

Vurğulanıb ki, 2025-ci ildə MDB çərçivəsində mühüm mədəniyyət və idman tədbirlərinin keçirilməsi planlaşdırılır və bunlara Azərbaycanda fəal hazırlıq gedir.

"Biz "Birliyin mədəniyyət paytaxtları" dövlətlərarası proqramı çərçivəsində əməkdaşlığa böyük əhəmiyyət veririk. Məlum olduğu kimi, Dövlət Başçıları Şurasının bu il oktyabrın 8-də qəbul etdiyi qərara əsasən, Azərbaycan Respublikasının Laçın şəhəri 2025-ci ildə Birliyin mədəniyyət paytaxtı elan edilib", - deyə Ə.Əsədov bildirib.

Qeyd olunub ki, işğaldan azad edilmiş Laçın şəhəri bu gün sürətlə bərpa olunur. "Möhtəşəm təbiətə və çoxəsrlik tarixə malik şəhərdə həyatın bərpasına və iqtisadi rifaha yönəlmiş irimiqyaslı infrastruktur, sosial layihələr sürətlə həyata keçirilir. "Böyük Qayıdış" proqramı çərçivəsində artıq iki mindən çox insan Laçın şəhərinə qayıdıb, gələn il isə Laçın Beynəlxalq Hava Limanının istifadəyə verilməsi planlaşdırılır", - deyə Baş nazir əlavə edib.

Ə.Əsədov Birliyin idman paytaxtı elan edilmiş Gəncə şəhərində gələn il keçiriləcək III MDB Oyunları barədə məlumat verib.

İclas iştirakçılarının diqqəti, eyni zamanda bu il Azərbaycanın siyasi həyatında baş verən mühüm hadisələrə yönəldilib.

"Müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq ölkənin ərazi bütövlüyünün bərpa edilməsindən sonra prezident və parlament seçkiləri onun bütün ərazisində keçirilib, bu isə tarixi hadisəyə çevrilib və keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarında təşkil olunmuş seçki məntəqələrində səs vermələrinə imkan yaradıb", - deyə Əli Əsədov bildirib.





Baş nazir bu yaxınlarda Bakıda başa çatmış COP29 iqlim konfransının nəticələrinə də toxunub. Diqqətə çatdırılıb ki, konfransın yekunları üzrə mühüm qərarlar, o cümlədən inkişaf etməkdə olan ölkələrə iqlim maliyyələşməsinin təqdim edilməsi, eləcə də İtki və Zərər Fondunun tətbiqi ilə bağlı qərarlar qəbul olunub.

Vurğulanıb ki, Azərbaycanın sədrliyi bir daha güclü siyasi iradənin və peşəkarlığın mövcudluğunu nümayiş etdirib, bu da Azərbaycana qarşı genişmiqyaslı, əsassız kampaniyaya, hətta dünya ictimaiyyətinə belə mühüm hadisəni boykot etməyə çağırışlara baxmayaraq, konfransın ən yüksək səviyyədə keçirilməsinə, mühüm nəticələrin əldə edilməsinə və çoxtərəfli danışıqlarda irəliləyişə nail olunmasına imkan verib.

Ə.Əsədov, həmçinin COP29 tədbirlərində fəal iştirak edən Rusiya Hökumətinin Sədri Mixail Mişustinə və MDB üzvü olan ölkələrin rəhbərliklərinə təşəkkür edib.

Sonda Ə.Əsədov MDB çərçivəsində konstruktiv dialoqun davam etdirilməsinin vacibliyini vurğulayıb.

İclasın yekununda MDB-yə üzv dövlətlərin hökumət başçıları tərəfindən bir sıra sənədlər imzalanıb.

# Baş nazir Əli Əsədov N.E.Bauman adına Moskva Dövlət Texniki Universitetində olub









Moskvaya işgüzar səfəri çərçivəsində Baş nazir Əli Əsədov və MDB-yə üzv ölkələrin digər nümayəndə heyətlərinin rəhbərləri dekabrın 12-də N.E.Bauman adına Moskva Dövlət Texniki Universitetinin kampusunda olublar.

AZƏRTAC xəbər verir ki, burada hökumət başçılarına MDB ölkələrindən Moskva universitetlərində təhsil alan tələbələrin birgə mühəndis layihələrinin təqdimatı keçirilib.





Azərbaycanlı tələbə Vüsal Məhərrəmovun da daxil olduğu qrup "Xəzərin orbiti" layihəsini təqdim edib. Bu layihənin məqsədi Xəzərin ekoloji problemlərinin kosmik monitorinq texnologiyalarının işlənməsidir.

Baş nazir Əli Əsədov azərbaycanlı tələbənin daxil olduğu qrupun təqdimatını yüksək qiymətləndirib və Vüsal Məhərrəmova təhsilində uğurlar arzulayıb.



# Dövlət və hökumət rəsmiləri Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin xatirəsini yad ediblər

Dekabrın 12-si Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım günüdür.

AZƏRTAC xəbər verir ki, Milli Məclisin Sədri Sahibə Qafarova, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, digər dövlət və hökumət rəsmiləri, hərbi qulluqçular, hüquq-mühafizə orqanlarının əməkdaşları, diplomatik korpusun nümayəndələri Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoyub, müasir müstəqil Azərbaycanın banisi və qurucusu Ulu Öndərin xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri qoyulub.

## Yeni Azərbaycan Partiyasının nümayəndələri Ulu Öndər Heydər Əliyevin xatirəsini yad ediblər



Dekabrın 12-də müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatının 21-ci ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının nümayəndələri Fəxri xiyabanda Ulu Öndərin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

## ADA Universiteti Qazax Mərkəzində Ümummilli Liderin xatirəsi yad edilib





ADA Universiteti Qazax Mərkəzində/Qazax Müəllimlər Seminariyasında Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr olunmuş tədbir təşkil edilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə seminariyada təhsil alan tələbələr, "Bir Müəllimin Manifesti" təhsil proqramının iştirakçıları, eləcə də Qazax və ətraf rayonlardan olan məktəblilər iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən ADA Universitetinin prorektoru, Qazax Müəllimlər Seminariyasının İdarə Heyətinin üzvü Vəfa Kazdal burada təqdim edilən azərbaycandilli ixtisaslar barədə məlumat verib. Seminariyanın müasir çoxşaxəli fəaliyyət istiqamətlərinə toxunarkən Vəfa Kazdal vurğulayıb ki, burada təhsil alan tələbələr, Mərkəzdə təqdim edilən proqramlarda iştirak etməklə peşəkar bacarığını artıran müəllimlər ənənə və dəyərlərimizin keşiyində duranlardır.

Ölkəmizin Gürcüstandakı səfirliyinin II katibi Ramiz Hacızadə soydaşlarımız üçün Azərbaycanın Dövlət Neft Şirkəti tərəfindən maliyyələşdirilən təhsil-təqaüd proqramından, ADA Universitetində təklif olunan proqramların Gürcüstanda təbliğindən bəhs edib.

ADA Universitetinin rektoru Hafiz Paşayev və tarix elmləri doktoru, I dərəcəli dövlət müşaviri Dilarə Seyidzadə Ümummilli Lider Heydər Əliyevlə bağlı "Xatirələrim" mövzusunda çıxış ediblər, iştirakçıların suallarını cavablandırıblar. Tədbir çərçivəsində səyyah Azər Qəribin "Bir Səfərin İzi ilə - İtaliya" filminin nümayişi baş tutub. Film Ümummilli Liderin İtaliyaya rəsmi səfərinin qeyri-rəsmi tərəflərini əks etdirir.

Bununla yanaşı Azərbaycanın Gürcüstandakı səfirliyinin dəstəyi ilə soydaşımız həvəskar rəssam, Qazax Müəllimlər Seminariyasının Təlim və Tədrisin təşkili üzrə magistratura proqramının tələbəsi Xəyalə Mustafayevanın Ümummilli Lider Heydər Əliyevə həsr olunmuş "Tarix Yazan İmza" mövzusunda rəsm sərgisi keçirilib.

# Ulu Öndərin xatirəsi anılıb













Ümummilli Lider Heydər Əliyevin anım günü ilə əlaqədar daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə nazirliyin əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət ediblər.

Bu barədə Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən bildirilib. Nazirliyin əməkdaşları Ulu Öndərin məzarı önünə əklil və gül dəstələri qoyub, əziz xatirəsini böyük ehtiramla anıblar.

❖ ❖ ❖

Dekabrın 12-də nazir Ceyhun Bayramovun rəhbərliyi ilə Xarici İşlər Nazirliyinin kollektivi xalqımızın Ulu Öndəri Heydər Əliyevin anım günündə Fəxri xiyabanı ziyarət edib.

Nazirliyin Mətbuat xidmətindən verilən məlumata görə, ziyarət zamanı Azərbaycanın dövlətçilik tarixində ölkəmizin müstəqilliyinin möhkəmlənməsi, xalqımızın inkişaf və rifahının yüksəldilməsi istiqamətində misilsiz xidmətlər göstərmiş Ümummilli Lider Heydər Əliyevin məzarı qarşısına gül dəstələri düzülüb, Ulu Öndərin əbədiyaşar xatirəsi dərin hörmət və ehtiramla yad edilib.

❖ ❖ ❖

Dekabrın 12-də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım günü ilə əlaqədar Müdafiə Nazirliyinin rəhbər heyəti Fəxri xiyabanı ziyarət edib. Nazirliyin Mətbuat xidmətindən bildirilib ki, Ulu Öndərin məzarı önünə əklil və gül dəstələri qoyulub, xatirəsi dərin hörmət və ehtiramla yad olunub.

Sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə gül dəstələri düzülərək ehtiram nümayiş etdirilib.

*AZƏRTAC*

❖ ❖ ❖

Müasir Azərbaycan dövlətinin qurucusu və memarı, dünya şöhrətli siyasətçi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anım günü ilə bağlı Baş prokuror Kamran Əliyev, prokurorluğun rəhbər heyəti və prokurorluq əməkdaşları Fəxri xiyabanı ziyarət ediblər. Ulu Öndərin məzarı önünə gül dəstələri qoyulub, əziz xatirəsi dərin ehtiramla yad edilib.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilib, məzarı üzərinə gül dəstələri qoyulub.

❖ ❖ ❖

Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri, müasir Azərbaycanın banisi və xilaskarı, Ümummilli Lider Heydər Əliyevin vəfatının 21-ci ildönümü ilə əlaqədar Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev və xidmətin əməkdaşları Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət etmiş, dahi şəxsiyyətin əziz xatirəsinə dərin ehtiramlarını bildirərək məzarı önünə əklil və gül dəstələri qoymuşlar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılmış, məzarı üzərinə gül dəstələri düzülmüşdür.

❖ ❖ ❖

Ümummilli Lider Heydər Əliyevin vəfatının 21-ci ildönümü ilə əlaqədar "Azərenerji" və "Azərişıq" Açıq Səhmdar cəmiyyətlərinin rəhbərlikləri və kollektivləri Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət ediblər.

Dahi şəxsiyyətin əziz xatirəsinə dərin ehtiram bildirilib və məzarı önünə əklil və gül dəstələri qoyulub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

*"Azərbaycan"*

# *Hikmət HACIYEV:* "Ermənistanın hərbi quruculuq siyasəti üzərində ciddi məhdudiyyətlər olmalıdır"

"Ermənistanın hərbi quruculuq siyasəti üzərində ciddi məhdudiyyətlər olmalıdır".

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev jurnalistlərə müsahibəsində deyib.

Beynəlxalq münasibətlər sistemində belə bir praktikanın olduğunu diqqətə çatdıran Hikmət Hacıyev əlavə edib: "İşğalçı və təcavüzkar dövlətlərin hərbi quruculuğu, hərbi planları və ordu quruculuğu prosesində müəyyən məhdudiyyətlər həyata keçirilir. Bu məhdudiyyətlər istər İkinci Dünya müharibəsindən sonra, istərsə də İraq-Küveyt müharibəsindən sonra İraqa münasibətdə tətbiq edilib. Ona görə də biz hesab edirik ki, Ermənistanın hərbi quruculuq siyasəti üzərində ciddi məhdudiyyətlər olmalıdır və Ermənistana hücum xarakterli silahları verən ölkələrin ciddi məsuliyyəti məsələsinə də baxılmalıdır".




"Təəssüflər olsun ki, Ermənistan tərəfindən Azərbaycana qarşı mina terroru siyasəti davam etməkdədir. Çünki 30 illik işğal dövründə bir milyondan artıq mina basdırılıb. Bu azmış kimi, hələ 2020-ci ildən sonrakı dövrdə - Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə müzakirələr getdiyi dövr ərzində yenə də Ermənistandan Azərbaycan ərazilərinə minaların daşınması proqramları həyata keçirilib", - deyə Hikmət Hacıyev jurnalistlərə müsahibəsində bildirib.

Ermənistanın regionda ən çox mina istehsal edən ölkələrdən biri olduğunu qeyd edən H.Hacıyev fikirlərinə belə davam edib: "Keçmiş təmas xətti ilə bərabər qondarma rejimin yerləşdiyi ərazinin perimetrləri çərçivəsində də minalanma siyasəti həyata keçirilib. Bunun nəticəsində bu gün də Azərbaycanın mülki insanları mina terrorunun qurbanları olmaqda davam edirlər. Bu məsələdə bilavasitə Ermənistan Respublikası dövlət məsuliyyəti daşıyır. Çünki Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi siyasətin tərkib hissəsi olaraq Azərbaycan əraziləri minalanıb. Ölkəmizin ərazisinin təqribən 12 faizi minalarla çirkləndirilib. Minaların təmizlənməsi böyük zəhmət və böyük maliyyə resursu tələb edir. Amma bundan daha vacibi bu nəticə insan həyatı hesabına başa gəlir. Mina təmizlənməsi işi çox çətin prosesdir. Bir çox halda mülki insanlar təsadüfdən və ya müəyyən yanlışlıq nəticəsində minaların qurbanlarına çevrilirlər. Mina, eyni zamanda Ermənistanın Azərbaycana qarşı məqsədyönlü şəkildə terror və işğal siyasətinin başqa formalarla davam etməsidir. Bu, Azərbaycanın bərpa və quruculuq işlərinin sürətinə mənfi təsir göstərir, mülki insanların təhlükəsiz şəkildə həmin ərazilərə qayıtmasını çətinləşdirir. Ermənistan tərəfinə göstərilmiş təzyiqlər nəticəsində onlar mina xəritələrinin bir qismini versələr də, həmin xəritələr reallıqda yerdəki vəziyyəti əks etdirmir, dəqiqliyi çox aşağı səviyyədədir. Ermənistan o xəritələrin bir çoxunu hələ təhvil verməyib. Versə belə, minaların təmizlənməsi çox ciddi, həyati təhlükə doğuran bir əməliyyatdır".

# *Nazir:* "Sülh müqaviləsi prosesində bəlli irəliləyişlər əldə edilib"

"Bu il Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesində müsbət irəliləyişlər olub. Buna bu ilin aprelində ilk dəfə olaraq iki ölkə arasında dövlət sərhədinin müəyyən hissəsinin delimitasiyasının və demarkasiyasının həyata keçirilməsini qeyd etmək olar".




AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov söyləyib.

Nazir bildirib ki, Ermənistanla sülh müqaviləsi üzrə fiziki görüşlər həyata keçirilib. Həmçinin mətn üzrə mübadilələr davam etdirilib. Açıq sualların olmasına baxmayaraq, sülh müqaviləsi prosesində bəlli irəliləyişlər də əldə edilib.

C.Bayramov onu da bildirib ki, sülh müqaviləsi ilə bağlı layihə preambula və 17 maddədən ibarətdir. Preambula və 15 maddə üzrə mətnlər tam razılaşdırılıb, iki maddə üzrə isə açıq suallarımız var. Həmin açıq suallar üzrə işlər davam edir. Artıq bir neçə raund danışıqlar və mətn mübadilələri həyata keçirilib. Hələ ki, tam razılaşdırılmış varianta gəlmək mümkün olmayıb.

Nazir qeyd edib ki, bundan əlavə çox önəmli digər məsələ Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının mövcudluğu faktıdır. "Bununla bağlı Ermənistandan qətiyyətli addımlar gözləyirik. Son zamanlar Ermənistan tərəfindən eşitdiyimiz arqumentlər bizi qane edə bilməz. Onu da qeyd etmək istərdim ki, Ermənistanın Konstitusiya Məhkəməsinin növbəti qərarı oldu. Belə ki, Konstitusiya Məhkəməsi Ermənistan Konstitusiyasının preambulasının dəyişməz olduğu və xüsusi olaraq preambulaya toxunmağın mümkün olmaması barədə qərar qəbul edib. Hesab edirik ki, bu, vəziyyəti daha da mürəkkəbləşdirir. Çünki məhz Ermənistanın Konstitusiyasının preambulasında Ermənistanın müstəqillik bəyannaməsinə istinad var. Həmin müstəqillik bəyannaməsində də Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialar yer alır", - deyə nazir əlavə edib.

# *Prezidentin köməkçisi:* "Avropa İttifaqının Ermənistandakı missiyasının fəaliyyəti başa çatmalıdır"

"İki ölkənin sərhədində üçüncü dövlətin qüvvələrinin yerləşdirilməsi narahatlıq doğuran faktdır. Azərbaycan Respublikası dəfələrlə bunu bildirib. Biz Ermənistan-Azərbaycan sərhədində Avropa İttifaqının (Aİ) missiyasının yerləşdirilməsinə hər hansı lüzum görmürük".

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev söyləyib.

Avropa İttifaqının Ermənistandakı missiyasının fəaliyyətinin başa çatmalı olduğunu vurğulayan Prezidentin köməkçisi əlavə edib: "Azərbaycan Prezidentinin, Fransa prezidenti Emmanuel Makronun, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin (sabiq prezidenti - red.) və Ermənistanın baş nazirinin iştirakı ilə Praqada razılaşdırılmışdı ki, missiya qısamüddətli olacaq. Amma gördüyümüz kimi, missiya davamlı prosesə çevrilir və onun tərkibi genişləndirilir. Hətta coğrafi mandat ərazisi də genişləndirilməkdədir".

O bildirib ki, Azərbaycanla Ermənistan arasında qarşılıqlı anlaşma və sülh şəraitində delimitasiya-demarkasiya prosesi aparılırsa, burada üçüncü qüvvənin olması, onun tərkibinin hərbi xarakterli qüvvələrlə zənginləşdirilməsinə və genişləndirilməsinə ehtiyac görmürük. Ona görə də sülhün gücləndirilməsi bilavasitə Azərbaycanla Ermənistan arasında olan prosesdir və ikitərəfli xarakter daşıyır. Əksinə, üçüncü qüvvənin iki ölkənin sərhədində olması vəziyyətin müəyyən dərəcədə gərginləşdirilməsinə, Avropa İttifaqının bütövlükdə Cənubi Qafqazda hərbi amil kimi meydana çıxmasına xidmət edir.

"Ermənistanın militarizasiya proqramı həyata keçirilir. Bunun arxasında duran əsas qüvvələrdən biri Avropa İttifaqının və NATO-nun üzv ölkəsi olan Fransadır. Təəssüf ki, Fransa özünün beynəlxalq öhdəliklərinə rəğmən Ermənistanın silahlandırılması ilə bağlı proqramda iştirak edir", - deyə fikrinə davam edən Hikmət Hacıyev bildirib ki, beynəlxalq münasibətlərin məcəlləşdirilməsi prosesi İkinci Dünya müharibəsindən sonra başlayıb. Bu prosesdən sonra azsaylı ölkələr var ki, işğal və təcavüz törədib. Ermənistan da belə bir cinayət törətmiş ölkədir. Bu baxımdan Ermənistanın silahlandırılması məsuliyyətli parametrlər çərçivəsində olmalıdır. Ermənistana, xüsusilə Fransa tərəfindən verilən öldürücü və hücum xarakterli silahlar ciddi narahatlıq doğurmaqdadır. Ermənistanın silahlandırılması təkcə Fransa deyil, başqa dövlətlər tərəfindən də həyata keçirilir.

# Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlıq məsələləri müzakirə edilib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Hərbi Hava Qüvvələrinin komandanı ordu generalı Ziya Cemal Kadıoğlunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, türkiyəli qonaqlar əvvəlcə Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarlarını, həmçinin Şəhidlər xiyabanı və Türk Şəhidliyini ziyarət edərək əklil və gül dəstələri qoyub, xatirələrinə dərin ehtiram nümayiş etdiriblər.

Müdafiə Nazirliyində keçirilən görüşdə general-polkovnik Z.Həsənov qonaqları Azərbaycanda görməkdən məmnun olduğunu bildirib, Azərbaycan-Ermənistan şərti sərhədində mövcud əməliyyat şəraiti ilə bağlı Türkiyə nümayəndə heyətini məlumatlandırıb. O, Ermənistanın yenidən silahlandırılmasının regionda sülhün və sabitliyin qorunmasına mənfi təsir etdiyini vurğulayıb.

Azərbaycan-Türkiyə strateji müttəfiqliyinin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu bildirən nazir hərbi əməkdaşlığımızın daha da inkişaf etdirilməsinin vacibliyini, qardaş ölkənin hərbi sənayesinin günü-gündən inkişaf etməsinin qürurverici məqam olduğunu bildirib.

Səmimi qonaqpərvərliyə görə təşəkkürünü bildirən Z.C.Kadıoğlu ölkələrimiz arasında qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsinə yönəldilmiş hərbi əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edib.

Son zamanlar dünyada baş verən münaqişələrin, müasir döyüş üsullarının birgə təhlil olunması və öyrənilməsinin zəruriliyinin xüsusi vurğulandığı görüşdə, həmçinin hərbi, hərbi-texniki əməkdaşlıq, regional təhlükəsizlik və digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb. 15 ildir ki, davam edən Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq iclasının müsbət nəticələrindən danışılıb.

Sonra Azərbaycan Respublikasının müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və müdafiə nazirinin müşaviri general-polkovnik Bəxtiyar Ersay qardaş ölkənin nümayəndə heyəti ilə görüşüblər. Baş Qərargahda keçirilən görüşlər zamanı hərbi əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub, qarşılıqlı təcrübə mübadiləsi məqsədilə birgə təlimlərin keçirilməsinin, qoşunların uyarlılığının təmin olunmasının vacibliyi qeyd edilib.

Səfər çərçivəsində türkiyəli nümayəndələr Hərbi Hava Qüvvələrində olub. Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Namiq İslamzadə rəsmi qarşılanma mərasimindən sonra qonaqlarla görüşüb.

Görüşdə Azərbaycan Ordusunda həyata keçirilən islahatlardan danışılıb, peşəkar kadr hazırlığı məqsədilə hərbi təhsil sahəsində əməkdaşlığın davam etdirilməsinin zəruriliyi vurğulanıb, eləcə də birgə hərbi əlaqələrin inkişaf istiqamətlərinə dair müzakirələr aparılıb.

Türkiyəli nümayəndə heyəti Hərbi Hava Qüvvələrinin Mərkəzi Komanda Məntəqəsində görülən işlər barədə ətraflı məlumatlandırılıb.

# Azərbaycan nümayəndə heyəti Həştərxan şəhər administrasiyasında olub

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Rusiya Federasiyasının Həştərxan vilayətinə səfəri çərçivəsində Həştərxan şəhərinin meri İqor Redkin ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə əlaqələrin inkişafı, təcrübə mübadiləsinin aparılması və qarşılıqlı səfərlərin intensivləşdirilməsi məsələləri müzakirə olunub.

Qeyd edilib ki, Azərbaycan Rusiya Federasiyasının subyektləri ilə əlaqələrin inkişafına diqqətlə yanaşır. İqtisadi, ticarət, nəqliyyat sahələrindəki qarşılıqlı əməkdaşlıq regionların sosial-iqtisadi inkişafına təkan verir. Həştərxan Rusiyanın tarixi, gözəl və iqtisadi baxımdan inkişaf etmiş regionlarından biridir. Bu regionla əməkdaşlıq əlaqələri perspektivdə tərəflər üçün faydalı olacaq.

Diqqətə çatdırılıb ki, Həştərxan vilayəti ilə Abşeron rayonu arasında dostluq münasibətləri səmimi xarakter daşıyır və iqtisadi baxımdan səmərəlidir.

Söhbət zamanı tərəflərin dostluq əlaqələrini və qarşılıqlı əməkdaşlığı davam etdirmək əzmində olduqları vurğulanıb.



Görüşdə Milli Məclisin deputatları Rizvan Nəbiyev, Zaur Şükürov və Həştərxan vilayətinin xarici əlaqələr naziri Vladimir Qolovkov iştirak ediblər.

# Həştərxanda Heydər Əliyev adına məktəbin kollektivi ilə görüş

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Rusiya Federasiyasının Həştərxan şəhərinə səfəri çərçivəsində burada Ulu Öndər Heydər Əliyevin adını daşıyan 11 nömrəli ümumtəhsil məktəbinin kollektivi ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin məktəbin foyesində ucaldılmış büstü önünə gül dəstələri qoyulub, Ulu Öndərin həyatını və siyasi fəaliyyətini əks etdirən fotostendə baxış olub.



Sonra keçirilən tədbirdə çıxış edən məktəbin direktoru Tatyana Tixomirova Heydər Əliyev Fondunun Həştərxanda həyata keçirdiyi layihələrdən və məktəbin tarixindən danışıb. Bildirib ki, bu məktəb beynəlmiləl xarakter daşıyır və burada təhsil alan müxtəlif millətlərdən olan uşaqlar, onların valideynləri Heydər Əliyevi daim minnətdarlıqla yad edirlər. Şagirdlər Heydər Əliyevin adını daşıyan məktəbdə oxumaqları ilə fəxr edirlər. Bu məktəb təhsilin keyfiyyətinə görə xüsusi seçilir.

Həştərxan vilayətinin təhsil və elm naziri Mariya Şalak çıxışında belə yüksəksəviyyəli təhsil ocağına görə Heydər Əliyev Fonduna təşəkkürünü bildirib. Diqqətə çatdırıb ki, vilayətlə Azərbaycanın təhsil sahəsindəki əməkdaşlığı gənc nəslin təkcə vətənpərvərlik deyil, eyni zamanda müxtəlif xalqlara hörmət və dostluq ruhunda yetişməsinə şərait yaradıb.

Vilayətin xarici əlaqələr naziri Vladimir Qolovkov isə çıxışında qarşılıqlı əlaqələrin inkişafından, humanitar sahədə əməkdaşlıq məsələlərindən danışıb.

Qeyd edib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev özünün siyasi fəaliyyəti ilə böyük irs yaradıb. Bu irs həm Azərbaycan xalqına, həm də keçmiş SSRİ ərazisində yaşayan xalqlara əmanətdir. Bu irsin öyrənilməsi və təbliği ancaq inkişafa, dostluğa, qarşılıqlı hörmətə və səmimi münasibətlərin qurulmasına xidmət edə bilər.

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev vurğulayıb ki, Heydər Əliyev Fondunun dəstəyi ilə Həştərxan şəhərində yenidən qurularaq istifadəyə verilən bu məktəbin Ulu Öndərin adını daşıması təsadüfi deyil. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev həm Sovet İttifaqında yüksək vəzifələrdə işlədiyi dövrdə, həm də müstəqil Azərbaycanın Prezidenti olanda elmə və təhsilə böyük diqqət, qayğı göstərib. Görkəmli siyasi xadimin adını daşıyan bu məktəb Rusiya ilə Azərbaycanın dostluq əlaqələrinin rəmzidir.

Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyev SSRİ dövründə Baykal-Amur Magistralı kimi mühüm dəmir yolu layihəsinin reallaşmasında böyük rol oynayıb. Keçmiş SSRİ ərazisində Heydər Əliyevin qurucu obrazını canlandıran çoxlu iş var və bu, xalqımızın Ulu Öndərinin xatirəsinin yaddaşlarda əbədi olaraq yaşamasını şərtləndirir.

A.Fərzəliyev Ulu Öndərin adını daşıyan məktəbin əlaçı şagirdlərinin Azərbaycana səfərlərinin təşkili ilə bağlı təşəbbüs irəli sürüb.

Sonra məktəbin müəllimləri çıxış edərək şagirdlər üçün yaradılan şəraitə görə təşəkkürlərini bildiriblər.

Tədbirdə, həmçinin Milli Məclisin deputatları, Həştərxan vilayəti hökumətinin rəsmi şəxsləri iştirak ediblər.

# Həştərxandakı Azərbaycan İş Mərkəzində diaspor nümayəndələri ilə görüş

Həştərxanda səfərdə olan Azərbaycan nümayəndə heyəti burada fəaliyyət göstərən Azərbaycan diasporunun nümayəndələri ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Azərbaycan İş Mərkəzində keçirilən görüşdə "Azərbaycan" Milli Mədəniyyət Təşkilatının rəhbəri, Həştərxan vilayətinin qubernatoru yanında Etnokonfessional Şuranın sədri Vahid Rəhimov çıxış edərək, Həştərxanda Azərbaycana xüsusi rəğbət bəslənildiyini bildirib. Qeyd edib ki, burada yaşayan azərbaycanlılarla digər millətlər arasında əməkdaşlıq əlaqələri mövcuddur. Vilayət rəhbərliyi ilə də yaxşı əlaqələr var. Həmçinin birgə müxtəlif tədbirlər keçirilir, yerli azərbaycanlıların problemləri müzakirə olunur və aradan qaldırılır. Diaspor təşkilatı Azərbaycan dövlətinin qayğısını da hər zaman hiss edir.

Nümayəndə heyətinin rəhbəri Abdin Fərzəliyev bildirib ki, Rusiya Federasiyasının vilayətləri ilə Azərbaycan arasında müxtəlif sahələr üzrə əlaqələr inkişaf edir. Həştərxan vilayətində fəaliyyət göstərən Azərbaycan diasporu ölkəmizin təbliğində və xalqların yaxınlaşmasında mühüm rol oynayır. Diasporun əsas fəaliyyəti dostluq və qardaşlıq əlaqələrini gücləndirməkdən ibarətdir. Həştərxanda açılan Azərbaycan İş Mərkəzi də bu əməkdaşlığın həyata keçirilməsində iştirak edir. Diaspor təşkilatlarının qarşılıqlı əlaqələrinin inkişafı dövlətlər arasındakı münasibətlərə də müsbət təsir göstərir. Bu əlaqələri inkişaf etdirmək və gələcək planları daha da əhatəli qurmaq lazımdır.

Sonra Milli Məclisin deputatları və diaspor təşkilatının digər nümayəndələri çıxış edərək, perspektivdəki işlərdən danışıblar.



# Ulu Öndərə olan böyük sevgi əbədidir

Xalqımız 21 ildir ki, dekabrın 12-ni Ulu Öndər Heydər Əliyevin anım günü kimi böyük minnətdarlıq və ehtiram hissi ilə qeyd edir. Yer üzündəki bütün xalqların milli azadlıq və istiqlaliyyət tarixində dərin iz qoymuş qüdrətli xilaskar şəxsiyyətləri olub. Həmin dahi insanlar siyasi iradələri və bacarıqları ilə mənsub olduqları xalqı arxasınca aparıb, ən taleyüklü məqamlarda tarixin gedişini dəyişiblər. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev də həm ölkə, həm də müasir dünya tarixinə parlaq və silinməz izlər qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşüb.

İşıqlı əməlləri ilə tarixə adını əbədi olaraq həkk etmiş nadir şəxsiyyət, qüdrətli dövlət xadimi Heydər Əliyevin şərəf dolu ömür yolu Azərbaycan xalqının qürur və iftixar mənbəyinə çevrilmişdir. Ümummilli Lider Heydər Əliyevin şərəfli həyat yolu gənclərimiz üçün də əbədi bir məktəbdir.

Dahi şəxsiyyət Heydər Əliyev Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan, əfsanəvi şəxsiyyət, müasir müstəqil Azərbaycanın memarı və qurucusu, xalqının sevimli oğlu kimi qalıb. Ulu Öndər müstəqil Azərbaycanın sosial-iqtisadi və siyasi əsaslarının möhkəmləndirilməsində, dünyanın aparıcı dövlətlərinin etibarlı tərəfdaşına çevrilməsində zaman-zaman böyük işlər görüb, uğurlu addımlar atıb. Heydər Əliyev işıqlı zəkası, biliyi, bacarığı ilə, uzaqgörən siyasəti ilə millətini bütün bəlalardan qoruyub, respublikada ictimai-siyasi sabitliyi təmin edib, vətəndaş qarşıdurmasını aradan qaldırıb, ölkənin parçalanmasına imkan verməyərək milli qurtuluşu, milli tərəqqini təmin edib. Ulu Öndərin həyata keçirdiyi məqsədyönlü daxili və xarici siyasət nəticəsində yeni yüzilliyə, həm də yeni minilliyə müstəqil dövlət kimi qədəm qoymaq tariximizdə ilk dəfə baş verib.

Bir qayda olaraq hər il dekabrın 12-də Ümummilli Lider Heydər Əliyevin anım günü ilə əlaqədar xalqımız özünün dövlətçilik tarixində böyük rol oynamış, müasir müstəqil Azərbaycanın banisi olmuş bu böyük şəxsiyyətin Fəxri xiyabandakı məzarını böyük ehtiramla ziyarət edir, xatirəsini hörmətlə anır.

Hava bir az sazaqlı olsa da, xalq böyük sevgi ilə öz xilaskar oğlu, tarixi şəxsiyyət, Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət etməyə gəlir. Əllərində gül dəstələri, əklillər Fəxri xiyabana axışan insanların ardı-arası kəsilmir. Ziyarətə gələn insanların baxışlarında, üzlərində qürur və iftixarla yanaşı, kövrək bir duyğu da dolaşır. Təbiidir ki, bütün bunlar Azərbaycan xalqının Ulu Öndərə olan sevgi və istəyindən, ehtiram və hörmətindən doğan bir hissdir.

Xalqın sevimli oğlu Ümummilli Lider Heydər Əliyev daim qəlblərdə yaşayır. Fəxri xiyabana ziyarətə gələnlərlə söhbət edərkən bir daha şahidi olduq ki, xalq Ümummilli Liderə böyük ehtiram göstərir, bu dahi şəxsiyyətin məzarını dərin minnətdarlıq hissi ilə ziyarət edir.

Ziyarətə gələnlərin arasında siyasətçilər, elm adamları, gör-



kəmli mədəniyyət xadimləri, tələbələr, məktəblilər, veteranlar, təqaüdçülər və s. var idi. Xalq artisti Hacı İsmayılov da Ulu Öndərin məzarını ziyarətə gələnlərin arasındaydı. Söhbət zamanı o dedi ki, Ümummilli Lider Heydər Əliyev başqa sahələrlə yanaşı mədəniyyətimizin inkişafına da həmişə böyük diqqət və qayğı göstərirdi. Biz aktyorlar bu böyük şəxsiyyətin qayğısını üzərimizdə daim hiss edirdik. Ulu Öndərin tamaşalardan sonra səhnədə aktyorlarla keçirdiyi görüşləri həmişə xoş təəssüratlarla xatırlayırıq. Dünya tarixi sübut etmişdir ki, şəxsiyyətlərin gücü, ağlı, cəsarəti, siyasi iradəsi və müdrikliyi mənsub olduğu xalqın, onun yaratdığı dövlətin həyatında əvəzedilməz rola malikdir. Bu şəxsiyyətlər arasında müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ulu Öndər Heydər Əliyevin özünəməxsus yeri var. Bu böyük dövlət adamı dövrümüzün ən parlaq simalarından və nadir şəxsiyyətlərindən biridir. O, şərəfli həyat və fəaliyyəti ilə tarixi min illərlə hesablanan, dünyanın zəfər salnaməsinə şanlı səhifələr yazmış qədim bir xalqın qəhrəmanlıq və müdriklik simvoluna çevrilmişdir. Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə gəldikdən sonra başqa sahələrdə olduğu kimi, ordu quruculuğu istiqamətində də uğurlu islahatlar həyata keçirdi. Bu islahatlar nəticəsində ölkəmizin qüclü, qüdrətli silahlı qüvvələri yaradıldı. Bünövrəsini Ulu Öndər Heydər Əliyevin qoyduğu Azərbaycan Ordusu 27 sentyabr 2020-ci ildə erməni qəsbkarlarının təxribatı nəticəsində başlanan müharibədə Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə torpaqlarımızı işğalçılardan azad etdi. Bu Zəfərə hamımız sevindik. Xalqımız üçün müasir və müstəqil Azərbaycanı yaratdığına görə biz sənət adamları dahi şəxsiyyətin xatirəsini böyük minnətdarlıq hissi ilə yad edirik. O əbədi olaraq qəlblərdə yaşayacaq.

Bakı şəhər 3 nömrəli məktəbin 10-cu sinif şagirdi Əli Məmmədov da ürəyinin hökmü ilə xalqımızın xilaskar oğlu Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etməyə gəlmişdi. Söhbət zamanı Əli dedi: "14 yaşından başlayaraq anım günündə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edirəm. Ən çox sevdiyim fənlərdən biri də tarixdir. Çalışıram ki, tariximizi, ulu keçmişimizi dərindən öyrənim. Tarixi vərəqləyəndə görürük ki, Ulu Öndərin şərəf dolu həyat və fəaliyyəti doğma xalqına və torpağına məhəbbət və sevgi meyarı olub. Ümummilli Liderimiz Heydər Əliyevin sarsılmaz qətiyyətli iradəsi, xalqın tərəqqisi yolunda yorulmaq bilmədən çalışması, fədakar əməyi sayəsində müasir Azərbaycanın bünövrəsi qoyulub. Ulu Öndər Heydər Əliyevin cəmiyyətin iqtisadi, siyasi, sosial, mədəni sahələrinin ən müxtəlif aspektlərini əhatə edən geniş diapazonlu və örnək olası fəaliyyəti, müasir dövrün ən aktual problemlərinə yaradıcı mü-



nasibəti onu milli liderdən, rəhbər və siyasi xadimdən bəşəri ideyaların carçısına, ümumbəşəri dəyərləri daim zənginləşdirən hikmət və söz sahibinə çevirmişdir. İndi biz gənclərin qəlbində Ulu Öndərin ölməz işıqlı obrazı yaşayır. Bu obraz daim bizi oxumağa, dövlətimiz üçün layiqli vətəndaş olmağa səsləyir. Ulu Öndərimizin məzarını ziyarətə minnətdarlıq hissi ilə gəlmişəm. Çünki böyük şəxsiyyət biz gənclər üçün müasir müstəqil bir dövlət qurub. İndi biz bu müstəqil dövlətdə sülh, əmin-amanlıq içində yaşayıb oxuyuruq. Müstəqil dövlətimizin gənclərindən biri olaraq Heydər Əliyevin şərəfli ömür yollarını özümə örnək bilirəm".

Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində yaradılmış Sankt-Peterburq Azərbaycanlılar Cəmiyyətinin, "Xan qızı Natəvan" təşkilatının üzvü Vüsalə Zeynalova da anım günündə Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edirdi. Söhbət zamanı Vüsalə xanım dedi ki, Rusiya Federasiyasının Kemerovo şəhərində yaşayır. "Xan qızı Natəvan" təşkilatının "Sənsən mənim Vətənim" layihəsinə uyğun olaraq doğma vətənimizə gəlmişik. Gəlməkdə də əsas məqsədimiz istedadlı şəhid və qazi övladlarının iştirakı ilə böyük müsabiqə keçirmək idi. Artıq müsabiqəmizi keçirdik və istəyimizə çatdıq. Uzun zaman yaddaşlarda yaşayacaq bu tədbirləri Sank-Peterburq və Leninqrad vilayətinin diasporunun üzvləri, Qadınlar Şurası və Gənclər təşkilatı ilə birlikdə keçirdik. Qoy şəhid və qazi uşaqları görsünlər ki, onlar unudulmayıb və heç vaxt da unudulmayacaqlar. Axı onların valideynləri torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə vuruşublar, 30 ilə yaxın erməni işğalında qalmış torpaqlarımızı azad ediblər.



Biz Rusiya Federasiyasında yaşasaq da, ürəyimiz Azərbaycanda, doğma vətənimizdə döyünür. Torpaqlarımızın azadlığı uğrunda ağır döyüşlərin getdiyi günlərdə biz daim televiziya proqramlarını izləyir, Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarını intizarla gözləyirdik. Kənd və şəhərlərimizin düşməndən təmizləndiyini eşitdikcə çox sevinirdik. Şükürlər olsun ki, Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızı erməni işğalçılarından azad etdi. Ordumuzun gücü, qüdrəti sayəsində Ermənistan silahlı qüvvələri məhv edildi, diz çökdürüldü. Azərbaycan xalqı Zəfər sevincini yaşadı, torpaqlarını azad gördü. Bundan böyük xoşbəxtlik yoxdur.

Bu gün Azərbaycan xalqının xilaskar oğlu Heydər Əliyevin anım günüdür. Mən də qızım Fidanla bu böyük şəxsiyyətin məzarını ziyarət etdik. Fəxri xiyabanda böyük izdiham gördük. Xalq böyük sevgi ilə Heydər Əliyevi anmağa gəlirdi. Deməli, Azərbaycan xalqı ürəyində Ulu Öndərə sonsuz sevgi və ehtiram bəsləyir. Bu gün Fəxri xiyabanda gördüklərimi yaşadığım Kemerovo şəhərindəki soydaşlarımıza da danışacağam. Qoy hamı görsün ki, Azərbaycan xalqı Ulu Öndərini necə böyük sevgi və ehtiramla yad edir. Belə ehtiram, belə diqqət heç də hamıya nəsib olmur. Bu, yalnız və yalnız Ümummilli Lider Heydər Əliyev kimi dahi şəxsiyyətlərə, böyük insanlara qismət olur.

Hava qaralsa da, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etməyə gələnlərin ardı-arası kəsilmir. Əllərində gül-çiçək tutmuş insanlar Ümummilli Liderin məzarını ziyarət etməyə tələsirlər. Anım mərasimindəki bu coşqu, bu izdiham bir daha göstərir ki, Azərbaycan xalqının böyük şəxsiyyətə sevgisi, ehtiramı heç vaxt tükənməyəcək. Ömrünü xalqının işıqlı gələcəyinə, nurlu sabahlarına həsr etmiş Ulu Öndər Heydər Əliyevin məzarı əbədi olaraq Azərbaycan xalqının müqəddəs ziyarətgahına çevriləcək.

***Vahid MƏHƏRRƏMOV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# Bölgələrdə Ümummilli Liderin xatirəsi hörmətlə anılıb



## Naxçıvan

Dekabrın 12-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət nümayəndələri, deputatlar müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət ediblər.

Abidə önünə güllər qoyulub, Ulu Öndərin xatirəsi dərin ehtiramla yad edilib.

## Gəncə

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım günü Gəncə şəhərində ehtiramla yad olunur.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki baş konsulu Recep Öztop, Gürcüstanın Gəncədəki baş konsulu Qaxaber Abdaladze, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə və təşkilatların kollektivləri Ümummilli Lider Heydər Əliyevin Gəncənin baş meydanındakı abidəsini ziyarət edib, önünə tər gül dəstələri düzüb, xatirəsinə dərin hörmət ifadə ediblər.

## Xankəndi

Xalqımızın Ümummilli Lideri, böyük siyasi xadim Heydər Əliyevin əziz xatirəsi respublikamızın hər yerində olduğu kimi, Xankəndidə də anılıb. Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə Qarabağ Universitetinin əməkdaşları, Xankəndi şəhəri Nizami Gəncəvi adına 4 nömrəli tam orta məktəbin, idarə və təşkilatların rəhbərləri, Xankəndi və Xocalı sakinləri iştirak ediblər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbirdə çıxış edən Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov müasir Azərbaycanın memarı olan Ulu Öndərimizin əziz xatirəsinin qədirbilən xalqımız tərəfindən hər zaman dərin ehtiramla yad edildiyini bildirib.

E.Yusubov Xankəndidə Azərbaycan Bayrağının ucaldılmasını həm Heydər Əliyevin 100 illiyinə, həm də xalqımıza ən böyük töhfə adlandırıb. Heydər Əliyevin 2003-cü ildə Azərbaycan xalqına müraciətində dediyi "Mən İlham Əliyevə özüm qədər inanıram" sözlərini xatırladan xüsusi nümayəndə diqqətə çatdırıb ki, Prezident İlham Əliyev bu inamı doğrultdu. Xankəndi, Xocalı, Ağdərə və digər yaşayış məntəqələrimiz işğaldan azad edildi. Bu gün təkcə Qarabağ deyil, Şərqi Zəngəzur da azaddır. Prezident İlham Əliyev uzun illər işğal altında olan torpaqları azad etməklə, Ulu Öndər Heydər Əliyevin ən böyük arzusunu gerçəkləşdirdi.

## Sumqayıt

Sumqayıtlılar dekabrın 12-də Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsini ehtiramla anıblab.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, Milli Məclisin şəhərdən seçilən deputatları, hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrin rəhbərləri, ictimaiyyət nümayəndələri Ulu Öndərin adını daşıyan parkdakı abidəsini ziyarət edərək, önünə tər güllər düzüb, dahi şəxsiyyətə hörmət və ehtiramlarını bildiriblər.

Ölkəmizin ictimai-siyasi, iqtisadi, elmi-mədəni həyatının elə bir sahəsi yoxdur ki, orada xalqımızın müdrik oğlu Heydər Əliyevin möhtəşəm quruculuq izləri, parlaq əməlləri görünməsin. Ötən əsrin 70-80-ci illərində ölkəyə rəhbərlik edən Ulu Öndərin başlatdığı islahatlar, inkişaf strategiyası Azərbaycanın bütün regionları kimi, Sumqayıtın da dinamik inkişafına təkan verib. Sumqayıt və sumqayıtlılar həmişə Ulu Öndərin xüsusi diqqət və qayğısını hiss ediblər. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə Sumqayıt ölkəmizin aparıcı sənaye mərkəzinə çevrilib. Müstəqillik dövründə də şəhər davamlı olaraq Ulu Öndərin gündəmində olub. O, 16 dəfə Sumqayıta səfər edib, hər dəfə də yeni müəssisələrin təməlqoyma və açılış mərasimlərində iştirak edib.

Sonra Ümummilli Liderin anım günü ilə əlaqədar ehsan verilib.

## Laçın

Rayonda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anım günü keçirilib. Tədbirdə Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin, Laçın şəhər, Zabux və Sus kənd tam orta məktəblərinin pedaqoji heyəti, Laçın Rayon Mərkəzi Xəstəxanasının həkim heyəti, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, qazilər, idarə, müəssisə və təşkilatların nümayəndələri iştirak ediblər. Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətindən verilən məlumata görə, əvvəlcə Ulu Öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub, Dövlət himni səsləndirilib.

Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov çıxış edərək bildirib ki, Ulu Öndər təkcə Azərbaycanın tarixində deyil, bütövlükdə dünya siyasət səhnəsində dərin iz buraxmış liderdir. Prezidentin xüsusi nümayəndəsi vurğulayıb ki, Ulu Öndərin irsi və ideyaları bizim üçün bir mayakdır. Bildirilib ki, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Heydər Əliyev siyasi kursunu uğurla davam etdirərək, xalqımızı vahid məqsəd ətrafında birləşdirib və onun rəhbərliyi altında Azərbaycan Qarabağın işğaldan azad edilməsi kimi tarixi Zəfəri gerçəkləşdirib.

Daha sonra çıxış edən müəllim Kifayət Sadıqova və rayon ziyalısı Qəzənfər Hüseynov qeyd ediblər ki, Heydər Əliyev təkcə müstəqil Azərbaycanın qurucusu deyil, eyni zamanda xalqımızın milli-mənəvi dəyərlərinə önəm verən, onu gələcək nəsillərə ötürən böyük lider idi. Onun rəhbərliyi ilə ölkəmiz siyasi, iqtisadi və mədəni sahələrdə misilsiz uğurlara imza atıb və ölkəmizdə təhsil infrastrukturu gücləndirilib, elm və mədəniyyət sahələri yeni yüksəliş mərhələsinə daxil olub.

Sonda "Heydər Əliyev. Zamanın fövqündə" sənədli filmi nümayiş olunub.

## Tərtər

Dekabrın 12-də Azərbaycanın bütün bölgələrində olduğu kimi, Tərtər rayonunda da xalqımızın dahi oğlu, görkəmli siyasi xadim Heydər Əliyevin əziz xatirəsi ehtiramla anılıb. rayon icra hakimiyyətinin və hüquq-mühafizə orqanlarının rəhbərləri, YAP rayon təşkilatının və Ağsaqqallar Şurasının sədrləri, ziyalılar, idarə, müəssisə və təşkilatların kollektivləri, şəhid ailələri, qazilər, gənclər, rayon ictimaiyyətinin nümayəndələri dahi rəhbər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, böyük rəhbərin xatirəsini ehtiramla yad ediblər.

Sonra Heydər Əliyev Mərkəzində Ulu Öndərin zəngin həyatını və siyasi fəaliyyətini əks etdirən eksponatlara, kitablara, foto və sənədlərə baxış keçirilib. Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən film nümayiş olunub.

Çıxış edənlər Ulu Öndər Heydər Əliyevin çoxşaxəli fəaliyyətindən, Azərbaycanın inkişafı və milli dövlətçiliyin gücləndirilməsi istiqamətində misilsiz tarixi xidmətlərindən, böyük xilaskarlıq missiyasından danışıblar.

## Lənkəran

Rayonda müasir Azərbaycan dövlətinin memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin anım günü qeyd edilib.

Tədbirdə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, şəhid ailələrinin üzvləri, ağsaqqallar, müharibə veteranları, tələbələr və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Anım mərasiminin iştirakçıları Ümummilli Liderin şəhərin mərkəzi meydanında ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstələri düzüb, dərin sevgi və hörmətlərini ifadə ediblər.

Sonra ehsan süfrəsi açılıb, mərasim iştirakçıları Ümummilli Liderin əziz xatirəsini ehtiramla yad edərək, onun Azərbaycanın inkişafı, müstəqilliyinin qorunması və ölkəmizin daha da güclənməsi istiqamətində gördüyü əvəzsiz işlərdən danışıblar.

Qeyd edək ki, Lənkəranda Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsinə həsr olunan anım tədbirləri gün ərzində silsilə şəkildə davam edib. Sakinlər Ulu Öndərin abidəsini və Heydər Əliyev Muzeyini ziyarət edərək, xatirəsini dərin hörmət və ehtiramla anıblar.

## Goranboy

Goranboy Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anım günü ilə bağlı Olimpiya İdman Kompleksinin akt zalında "Heydər Əliyev - Vətənə, xalqa həsr edilən ömür" adlı tədbir keçirilmişdir.

Tədbirdə RİH-in əməkdaşları, YAP rayon təşkilatının fəalları, xidmət sahələrinin rəhbərləri, eləcə də şəhid ailələri və qazilər iştirak etmişlər.

Konfrans başlamazdan əvvəl Ümummilli Lider Heydər Əliyevin çoxşaxəli və mənalı ömür yolunu, dövlət idarəçilik fəaliyyətini özündə əks etdirən videoçarx nümayiş olunmuşdur. Sonra rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev və digər iştirakçılar çıxış edərək Azərbaycanın dövlətçilik tarixində əvəzsiz xidmətlər göstərən, müstəqil Azərbaycanın qurucusu və memarı olan Heydər Əliyevin çoxsahəli fəaliyyətini diqqətə çatdırmış və qeyd etmişlər ki, nə qədər Azərbaycan var bu dahi şəxsiyyətin əməlləri yaddaşlarda qalacaq və xalq onun xatirəsinə ehtiramını bildirəcəkdir.

## Qazax

Qazax Rayon İcra Hakimiyyəti, rayondakı Heydər Əliyev Mərkəzi və Yeni Azərbaycan Partiyası rayon təşkilatının birgə təşkilatçılığı ilə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anım günü ilə əlaqədar "Azərbaycan tarixinin qürur səhifələrinə çevrilən ömür yolu" mövzusunda tədbir keçirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə "Dahilər ölməz, əbədi yaşar!" adlı kitab sərgisində olmuş, Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən "Dahi şəxsiyyət" filminə baxmışlar.

Tədbiri giriş sözü ilə Qazax Rayon Heydər Əliyev Mərkəzinin direktoru Ceyhunə Hüseynova açaraq diqqətə çatdırmışdır ki, Heydər Əliyev Azərbaycanın ən yeni tarixinin yaradıcısıdır. O, öz həyatı və yorulmaz fəaliyyəti ilə xalq, el-oba, Vətən üçün yaşamağın, çalışmağın, mübarizə aparmağın əvəzsiz nümunəsini göstərərək nəsillərə örnək ola biləcək bir ömür yaşamışdır. Sonra rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək dahi şəxsiyyət Ulu Öndər Heydər Əliyevin ömür yolundan, siyasi fəaliyyətindən geniş söhbət açaraq demişdir ki, uzaqgörən lider, cəsarətli insan Heydər Əliyev bütün dövrlərdə xalqına ləyaqətlə, sədaqətlə xidmət etmişdir: "Azərbaycana rəhbərliyinin birinci dövründə onun qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində qısa müddət ərzində respublikamız sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur". YAP rayon təşkilatının sədri Anar Nəbiyev də çıxışında Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyevi Azərbaycan tarixinin yetirdiyi ən böyük şəxsiyyətlərdən biri kimi dəyərləndirmişdir. Diqqətə çatdırmışdır ki, Azərbaycanın 30 ildən artıq bir dövrünü əhatə edən tarixi məhz onun adı ilə bağlıdır.

Digər çıxış edənlər də Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi bütün dönəmlərdə gördüyü işlərdən danışmış, onun canı qədər sevdiyi xalqının inkişafı naminə həyata keçirdiyi işləri tədbir iştirakçılarının diqqətinə çatdırmışlar.

## Samux

Samux rayonunda müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anım mərasimi keçirilmişdir.

Rayon icra hakimiyyətinin və hüquq-mühafizə orqanlarının rəhbələri, idarə, müəssisə, təşkilatların nümayəndələri, şəhid ailələri Ulu Öndər Heydər Əliyev parkındakı abidəsini ziyarət etmişlər.

Mərasimdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Firdovsi Əliyev Heydər Əliyevin Azərbaycan tarixindəki rolundan, o cümlədən demokratik, hüquqi dövlət quruculuğundakı fəaliyyətindən danışmışdır. Bildirmişdir ki, dahi şəxsiyyətin layiqli davamçısı, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə misilsiz işlər görülmüş, çoxşaxəli islahatlar həyata keçirilmişdir. Torpaqlarımızın işğaldan azad olunması isə vətənini, xalqını sonsuz məhəbbətlə sevən, qətiyyəti, müdrikliyi ilə milyonlarla insanı öz ətrafında birləşdirməyi bacaran, dahi şəxsiyyət Heydər Əliyevin əziz xatirəsinə ən böyük töhfədir.

***AZƏRTAC,***
***"Azərbaycan"***

# Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi xarici ölkələrdə dərin ehtiramla yad edilib





## Çin

Azərbaycanın Çin Xalq Respublikasındakı səfirliyində Ulu Öndər Heydər Əliyevin xatirəsi anılıb.

Əvvəlcə Ulu Öndərin xatirəsi birdəqiqəlik sükutla yad edilib, səfirlikdəki büstü önünə gül dəstəsi qoyulub.

Çində yaşayan və təhsil alan soydaşlarımızın, "Azərbaycan Hava Yolları" QSC-nin Bakı-Pekin reysinin heyətinin qatıldığı tədbirdə çıxış edən səfir Bünyad Hüseynov bildirib ki, həyatını qüdrətli Azərbaycan dövlətinin yaradılmasına və inkişafına həsr etmiş Heydər Əliyev Azərbaycanı ağır və sərt sınaqlardan çıxararaq, işıqlı sabahın etibarlı bünövrəsini qoyub. Səfir deyib ki, 1991-ci ildə dövlət müstəqilliyini yenicə bərpa edən Azərbaycan Ermənistanın hərbi təcavüzü, daxili çəkişmələr, vətəndaş qarşıdurması, xaos, anarxiya fonunda müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə idi. Azərbaycan xalqı yaranmış ağır şəraitdən çıxmağın yeganə nicat yolunu Heydər Əliyevdə gördü və təkidlə onu yenidən hakimiyyətin sükanını əlinə almağa çağırdı. Nəticədə Ulu Öndər Heydər Əliyev xalqının iradəsinə uyğun olaraq Azərbaycanı, tarixi nailiyyət sayılan müstəqilliyimizi xilas etdi.

Ümummilli Liderin müdrikliyi, qətiyyəti, siyasi bacarığı və çoxillik idarəçilik səriştəsi ilə Azərbaycanda ictimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş başlandığını, xalqımızın həmrəyliyinin və milli birliyinin təmin edildiyini diqqətə çatdıran B.Hüseynov bildirib ki, cəbhədə atəşkəsin əldə olunmasından sonra ölkəmizin dünya birliyinə inteqrasiyası sürətlənib. Bu kontekstdə Heydər Əliyev tanınmış xarici neft şirkətlərini Azərbaycana dəvət edərək, yeni neft strategiyasının reallaşmasına başlayıb. Ümummilli Lider Heydər Əliyev dühasının təşəbbüsü və bilavasitə xidmətləri ilə reallığa çevrilən qədim İpək yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri kimi qlobal layihələr müstəqilliyimizi sarsılmaz və əbədi edib.

"Ulu Öndərin Azərbaycan xalqı qarşısında ən böyük tarixi xidmətlərindən biri də özünü əvəz edə biləcək siyasi varis yetişdirməsi idi" deyən səfir əlavə edib ki, bu gün Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin yürütdüyü praqmatik və uzaqgörən siyasət nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olunmaqla yanaşı, ölkəmiz regionun sürətlə inkişaf edən, güclü və nüfuzlu dövlətinə çevrilib.

Diplomat ölkəmizin milli maraqlarını nəzərə alaraq, dünyanın böyük güc mərkəzləri ilə balanslaşdırılmış siyasətə üstünlük verən Heydər Əliyevin 1994-cü ildə Çinə rəsmi səfərinin və səfər zamanı imzalanmış sənədlərin iki ölkənin münasibətlərinin inkişafı üçün yol açdığını bildirib.

Sonra Heydər Əliyev Fondunun Ulu Öndərin həyatına dair hazırladığı film nümayiş olunub.

Tədbir iştirakçıları Ümummilli Liderə həsr olunan sərgi ilə tanış olublar.

## CAR

Azərbaycanın Cənubi Afrika Respublikasındakı səfirliyində Ümummilli Lider Heydər Əliyevin vəfatının 21-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib.

Bu barədə Azərbaycanın Cənubi Afrika Respublikasındakı səfirliyindən məlumat verilib.

Tədbirdə səfirliyin əməkdaşları ilə birgə bu ölkədə yaşayan soydaşlarımız, qardaş Türkiyənin Pretoriyada akkreditə olunan səfirliyinin müşavirləri, eləcə də Cənubi Afrikanın siyasi-ictimai dairələrinin təmsilçiləri iştirak ediblər.

Əvvəlcə Ulu Öndərin səfirlikdəki fotoşəkli önünə gül dəstələri qoyulub, onun əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Mərasim iştirakçılarının qarşısında çıxış edən müvəqqəti işlər vəkili Hüseyn Rəhimli Heydər Əliyevin Azərbaycanın dövlətçiliyi tarixində əvəzsiz xidmətlərindən söhbət açaraq, Ulu Öndərin həm müstəqilliyimizin qorunub saxlanılmasında, həm də dövlətçiliyimizin möhkəmləndirilməsindəki tarixi rolundan bəhs edib. O, Ümummilli Lider Heydər Əliyevin müasir, müstəqil Azərbaycan dövlətinin banisi, xilaskarı kimi xalqımızın qəlbində daima yaşayacağını, Heydər Əliyev irsinin gələcək nəsillərə örnək və tədqiqat mövzusu olacağını söyləyib.

Vurğulanıb ki, əsası Ulu Öndər tərəfindən qoyulan Azərbaycanın siyasi və iqtisadi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsinin Zəfərlə başa çatmasından sonra azad olunan ərazilərdə tikinti-quruculuq işlərinin uğurla həyata keçirildiyi, Azərbaycanın bölgədə lider ölkəyə çevrildiyi diqqətə çatdırılıb.

Həmçinin Heydər Əliyev Fondu tərəfindən milli-mənəvi dəyərlərimizin, mədəni irsimizin qorunub saxlanılması, onun gələcək nəslə ötürülməsi, eləcə də mədəniyyət və incəsənətimizin, ümumiyyətlə, Azərbaycan həqiqətlərinin geniş miqyasda təbliği istiqamətində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın əhəmiyyətli rolu xüsusi vurğulanıb.

Toplantıda çıxış edən Türkiyə səfirliyinin müşaviri Nedim Kaya Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanda bir sıra layihələrin icrasında yaxından iştirak etdiyindən söhbət açaraq, Ümummilli Lider haqqında xoş xatirələri bölüşüb, onun müasir Azərbaycan dövlətinin quruluşundakı əvəzsiz rolundan bəhs edib.

Tədbir çərçivəsində Ümummilli Lider Heydər Əliyevin həyat yolu və fəaliyyətinə həsr olunmuş film nümayiş etdirilib.

## İsveç

Azərbaycan Respublikasının İsveç Krallığındakı Səfirliyində Ümummilli Lider Heydər Əliyevin vəfatının 21-ci ildönümünə həsr olunmuş anım mərasimi keçirilib.

Tədbirdə səfirliyin əməkdaşları ilə birgə bu ölkədə yaşayan soydaşlarımız da iştirak ediblər. Əvvəlcə Ulu Öndərin səfirlikdəki fotoşəkilli önünə gül dəstələri qoyulub, onun əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Mərasim iştirakçılarının qarşısında çıxış edən səfir Zaur Əhmədov Heydər Əliyevin Azərbaycanın dövlətçiliyi tarixindəki əvəzsiz xidmətlərindən söhbət açaraq, Ulu Öndərin həm müstəqilliyimizin qorunub saxlanılmasında, həm də dövlətçiliyimizin möhkəmləndirilməsindəki tarixi rolundan bəhs edib. O, Ümummilli Lider Heydər Əliyevin müasir, müstəqil Azərbaycan dövlətinin banisi, xilaskarı kimi xalqımızın qəlbində daim yaşayacağını, Heydər Əliyev irsinin gələcək nəsillərə örnək və tədqiqat mövzusu olacağını söyləyib.




"Ümummilli Liderin bizə qoyub getdiyi güclü Azərbaycan bu gün onun layiqli davamçısı Prezident İlham Əliyevin uğurlu, düşünülmüş siyasəti nəticəsində daha da güclənir, dünyada söz sahibinə çevrilir. Məhz ona görə də Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu ərazilərimizi işğaldan azad edib", - deyə Zaur Əhmədov vurğulayıb.

## Almaniya

Azərbaycanın Almaniyadakı səfirliyi Ulu Öndər Heydər Əliyevin anım günü ilə əlaqədar Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində "Müasir Azərbaycan Respublikasının banisi və Azərbaycan xalqının Ümummilli Lideri" adlı tədbir təşkil edib.

Anım tədbirində Almaniyanın dövlət qurumlarının təmsilçiləri, bir sıra ölkələrin səfirləri, media nümayəndələri, elm və mədəniyyət xadimləri, eləcə də Almaniyada yaşayan Azərbaycan, türk və digər dost icmaların üzvləri iştirak ediblər.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev anım tədbirində çıxış edərək Ümummilli Lider Heydər Əliyevin müasir müstəqil Azərbaycan dövlətinin qurulmasında və inkişafında misilsiz xidmətlərindən söz açıb. Diplomat bildirib ki, 1990-cı illərin əvvəllərində ərazisinin 20 faizi işğal edilən Azərbaycan müstəqilliyin itirilməsi, parçalanmaq və vətəndaş müharibəsi təhlükəsindən məhz öz həyatını doğma xalqına və Vətəninə həsr edən Ulu Öndər Heydər Əliyevin sarsılmaz qətiyyəti və zəngin dövlətçilik təcrübəsi sayəsində xilas olaraq, dinamik inkişaf yoluna qədəm qoyub.

Səfir müstəqil Azərbaycanın gələcək inkişafının təməllərinin Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu, neft strategiyasının müəyyənləşdirildiyini, bütün sahələrdə tərəqqiyə nail olunduğunu, ölkəmizdə bütün dinlərin və millətlərin nümayəndələrinin bir ailə kimi yaşayışının təmin olunduğu miltikulturalizm və tolerantlıq modelinin inkişaf etdirildiyini vurğulayıb.

Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam bərpasının Heydər Əliyevin ən böyük arzusu olduğunu bildirən səfir bu arzunun artıq reallığa çevrildiyini və Ulu Öndərin ruhunun şad olduğunu qeyd edib.

Sonra tədbir bədii hissə ilə davam etdirilib.

Bədii hissədə tanınmış opera müğənnisi Çinarə Şirinin fortepianoda Səbinə Məmmədovanın müşayiəti ilə rəngarəng ifası və skripkaçı Elvin Hoca Qəniyevin çıxışı böyük maraqla qarşılanıb.

Sonda Ulu Öndərin ruhuna ehsan süfrəsi açılıb.

Tədbirin iştirakçılarına Azərbaycanın zəngin tarixi-mədəni irsini əks etdirən nəşrlər təqdim olunub.

## Gürcüstan

Ulu Öndər Heydər Əliyevin vəfatının 21-ci ildönümü Gürcüstanda silsilə tədbirlərlə qeyd olunub.

Dekabrın 12-də Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, səfirlik əməkdaşları, Gürcüstandakı Azərbaycanlı İş Adamları Birliyinin (AZEBİ) İdarə Heyətinin sədri Nəriman Qurbanov, SOCAR-ın Gürcüstan nümayəndəliyinin rəhbərliyi və əməkdaşları Tbilisidəki Heydər Əliyev adına parkda Ümummilli Liderin abidəsi önünə əklil və gül dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər.

Daha sonra Ulu Öndərin Kür çayının sağ sahilindəki xatirə lövhəsi və Rustavi şəhərindəki abidəsi də ziyarət olunub.

Qeyd edək ki, dünyaşöhrətli siyasi xadim Heydər Əliyevin vəfatının 21-ci ildönümü ilə əlaqədar Gürcüstanın müxtəlif bölgələrində anım tədbirləri, sərgi və "dəyirmi masa"lar təşkil edilib.

## Türkiyə

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin vəfatının 21-ci ildönümü ilə əlaqədar dekabrın 12-də Ulu Öndərin İstanbulun Sarıyer rayonunda yerləşən Heydər Əliyev parkındakı abidəsi ziyarət olunub.

Tədbirdə Azərbaycanın İstanbuldakı baş konsulu Nərminə Mustafayeva, İstanbulun Sarıyer bələdiyyəsi sədrinin müavini Meltem Yücel Pir, qardaş ölkədə təhsil alan və təlimdə olan hərbçilərimiz, Sarıyer bələdiyyəsinin, konsulluğun və Azərbaycanın dövlət qurumlarının Türkiyədəki təmsilçiliyinin əməkdaşları, diplomatlar, rəsmi şəxslər, ziyalılar, media və QHT-lərin nümayəndələri iştirak ediblər.

Anım mərasimində çıxış edən baş konsul Nərminə Mustafayeva və Meltem Yücel Pir Ümummilli Liderin Türk dünyasında, eləcə də Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında, Azərbaycanın yenidən qurulmasında əvəzsiz xidmətləri, Heydər Əliyev irsi, onun başlatdığı siyasi yol haqqında danışıblar.

Çıxış edənlər bu yolun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi və nəticədə qazanılan şanlı Qarabağ Zəfəri barədə vurğulayıblar.

Anım tədbirində Ulu Öndərin xatirəsi ehtiramla yad edilib, abidəsi önünə əklillər və gül dəstələri qoyulub.

Tədbir iştirakçıları Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün bu ərazidəki büstünü də ziyarət edərək önünə gül dəstələri qoyublar.

## Tacikistan

Müasir müstəqil Azərbaycanın qurucusu və memarı, Ümummilli Lider Heydər Əliyevin vəfatının ildönümü ilə əlaqədar Azərbaycanın Tacikistandakı səfirliyində anım mərasimi keçirilib.

Səfirlikdən bildiriblər ki, Ulu Öndər Heydər Əliyevin səfirlikdəki büstü önünə əklil qoyulub və əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Sonra Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən fotosərgiyə baxış keçirilib.

Ölkəmizin Tacikistandakı səfiri Əlimirzamin Əskərov çıxışında görkəmli dövlət xadimi Heydər Əliyevin həyat yolundan, müasir Azərbaycan dövlətçiliyinin qurulmasında göstərdiyi mühüm və əvəzedilməz xidmətlərdən danışıb, onun səyləri nəticəsində respublikamızda vətəndaş qarşıdurmasının qarşısının alınması, sabitliyin bərpa olunması, ölkənin inkişaf yoluna qədəm qoyması barədə məlumat verib.

Dahi şəxsiyyət Heydər Əliyevin uğurlu siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən layiqli şəkildə davam etdirilməsi nəticəsində Azərbaycanın ərazi bütövlüyünün bərpasının və suverenliyinin tam bərqərar olması ilə nəticələndiyini, ölkəmizin sürətlə inkişaf edən, güclü və nüfuzlu dövlətə çevrildiyini vurğulayan səfir həmçinin Ulu Öndərin Azərbaycan-Tacikistan münasibətlərinin inkişafında xidmətlərini diqqətə çatdırıb.

Tədbirdə Tacikistanda yaşayan azərbaycanlılar və xarici qonaqlar da iştirak ediblər.

## Qazaxıstan

Azərbaycanın Qazaxıstandakı səfirliyində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatının 21-ci ildönümü ilə əlaqədar anım mərasimi keçirilib.

Əvvəlcə səfirlikdə Ulu Öndərin büstü önünə güllər düzülüb, xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Azərbaycanın Qazaxıstandakı səfiri Ağalar Atamoğlanov bildirib ki, Heydər Əliyevin rolu Azərbaycan tarixində həm diplomatik, həm iqtisadi, həm də strateji baxımdan əsas yer tutur. O, beynəlxalq arenada gərgin diplomatik iş aparıb, çoxsaylı dövlətlərlə danışıqlar nəticəsində Azərbaycanın ərazi bütövlüyünün tanınması və Ermənistanın işğalçılıq siyasətinin pislənməsi ilə bağlı qətnamələrin qəbul edilməsinə nail olub.

Ağalar Atamoğlanov diqqətə çatdırıb ki, Heydər Əliyev Azərbaycanın iqtisadi baxımdan güclü olmasının əsaslarını yaradarkən bunu həm də Qarabağın azadlığı üçün edirdi. Çünki güclü iqtisadiyyat olmadan güclü ordu qurmaq mümkün deyildi.

"Onun təşəbbüsü ilə reallaşdırılan nəhəng iqtisadi layihələr ölkəyə böyük maliyyə vəsaiti gətirməklə yanaşı, güclü ordunun yaradılmasına da şərait yaradıb. Qarabağın azadlığı üçün güclü ordunun yaradılması vacib məsələ idi", - deyə səfir vurğulayıb.

Diplomat xatırladıb ki, 2023-cü il Azərbaycanda "Heydər Əliyev İli" elan olunub və bu çərçivədə Qazaxıstanda bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilib.

"Eyni zamanda Astananın mərkəzi küçələrindən birinə Heydər Əliyevin adı verilib, onun haqqında Qazaxıstan TV sənədli film çəkib və "Qazpoçt" tərəfindən poçt markası buraxılıb. Bütün bunlar Heydər Əliyevin xidmətlərinin və irsinin unudulmaz olduğunu göstərir", - deyə səfir qeyd edib.

Digər çıxış edənlər vurğulayıblar ki, Ulu Öndərin müəyyənləşdirdiyi siyasi kursu Azərbaycan Prezidenti İlham Əliyev uğurla davam etdirir. Məhz bu siyasətin nəticəsidir ki, Azərbaycan Ordusunun gücü və qüdrəti artıb. Bunun ən bariz nümunəsi isə 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərdir.

Tədbirdə səfirliyin əməkdaşları ilə yanaşı, bu ölkədə yaşayan soydaşlarımız da iştirak ediblər.

## Moldova

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin vəfatının 21-ci ildönümü ilə əlaqədar Ulu Öndərin Kişineuda yerləşən büstü önündə anım mərasimi keçirilib.

Azərbaycanın Moldovadakı səfirliyinin kollektivi, diaspor nümayəndələri və Qarabağ qaziləri Ulu Öndərin büstü önünə tər çiçəklər düzüb, Ümummilli Liderin əziz xatirəsini birdəqiqəlik sükutla yad ediblər.

Ölkəmizin Moldovadakı səfiri Ülvi Baxşəliyev çıxış edərək görkəmli dövlət xadimi, Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyəti, Azərbaycan xalqının müasir dövlətçilik tarixinin formalaşmasında və inkişafında misilsiz rolu və xidmətləri haqqında ətraflı məlumat verib. Bildirib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan və Moldova münasibətlərinin memarıdır.

"Ümummilli Liderin bizə qoyub getdiyi güclü Azərbaycan bu gün onun layiqli davamçısı Prezident İlham Əliyevin uğurlu, düşünülmüş siyasəti nəticəsində daha da güclənir, dünyada söz sahibinə çevrilir. Məhz ona görə də Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu ərazilərimizi işğaldan azad edib", - deyə səfir vurğulayıb.

## Özbəkistan

Azərbaycanın Özbəkistandakı səfirliyinin və nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin əməkdaşları Daşkənddəki Heydər Əliyev parkında Ümummilli Liderin abidəsini ziyarət ediblər.

Ziyarətçilər Ulu Öndərin əziz xatirəsini anıb, dahi şəxsiyyətin abidəsi önünə əklil qoyub, çiçəklər düzüblər.

Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev Ümummilli Lider Heydər Əliyevin zəngin həyat və fəaliyyəti haqqında məlumat verib. Səfir Ulu Öndərin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi işlədiyi dövrdən başlayaraq Moskvadakı fəaliyyəti, xalqın təkidli tələbi ilə Bakıya qayıtması və müstəqil Azərbaycanın Prezidenti seçilməsi, ölkəmizi ağır bəlalardan xilas etməsi haqqında söhbət açıb.

Müasir Azərbaycanın memarı və qurucusu olan Heydər Əliyevin ölkəmizi dünyaya tanıtdığını bildirən səfir deyib: "Ulu Öndərin Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdışından sonra qısa müddətdə siyasi və iqtisadi islahatlar aparılıb, uğurlu nəticələr əldə edilib. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev uğurlu daxili və xarici siyasət aparır, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində önəmli addımlar atır. Özbəkistanla Azərbaycan arasında dostluq münasibətlərinin yaranması və inkişaf etdirilməsində Ulu Öndərin müstəsna xidmətləri var. Eyni din, tarix və mədəniyyətə malik iki qardaş xalq arasında münasibətlər hazırda yüksək səviyyədədir və bu istiqamətdə fəaliyyət davam edir".

***AZƏRTAC***

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## XİN: "Blinkenin qərəzli bəyanatını qətiyyətlə pisləyir və rədd edirik"

"ABŞ Dövlət katibi Entoni Blinkenin ölkəmizdə insan hüquqları və azadlıqlarının qorunması ilə bağlı mövcud vəziyyəti təhrif edən, Azərbaycanın məhkəmə-hüquq prosesinə müdaxilə məqsədli qərəzli bəyanatını qətiyyətlə pisləyir və rədd edirik".




AZƏRTAC xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadənin ABŞ Dövlət katibi Entoni Blinkenin Azərbaycan əleyhinə bəyanatına dair şərhində bildirilib. "Təəssüf ki, son 4 il ərzində Dövlət katibi Blinkenin rəhbərlik etdiyi ABŞ Dövlət Departamentinin Azərbaycanın daxili işlərinə müdaxilə ilə məşğul olması səbəbindən sözügedən dövr bir çox dönəmdə dostluq və əməkdaşlıq ilə yadda qalan Azərbaycan-ABŞ münasibətləri üçün itirilmiş illər kimi qiymətləndirilir. Entoni Blinken tərəfindən ölkəmizdə insan hüquqları ilə bağlı mövcud vəziyyətə münasibətdə ikili standartlar mövqeyindən çıxış edilməsinin ABŞ-nin bütövlükdə Cənubi Qafqaz siyasətini iflic vəziyyətinə gətirməsi hər kəsə yaxşı məlumdur. Ümidvarıq ki, yeni ABŞ Administrasiyası dövründə Azərbaycan və ABŞ arasında qarşılıqlı dostluq və tərəfdaşlıq münasibətləri yenidən bərpa olunacaq", - deyə qeyd olunub.

## Qərbi Azərbaycan İcması ABŞ Dövlət katibinin və digər rəsmilərinin Azərbaycanın daxili işlərinə kobud müdaxilə cəhdlərini kəskin şəkildə pisləyir

"Qərbi Azərbaycan İcması ABŞ Dövlət katibi Entoni Blinkenin və digər ABŞ rəsmilərinin Azərbaycanın daxili işlərinə artıq tendensiya halını almış kobud müdaxilə cəhdlərini kəskin şəkildə pisləyir".

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda qeyd edilib.

Bəyanatda deyilir: "Təəssüflə vurğulamaq istərdik ki, biz bu illərdə ABŞ-nin Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsini, etnik təmizləmə siyasəti həyata keçirməsini, biz qərbi azərbaycanlıları deportasiya etməsini pislədiyini görmədik. ABŞ rəsmiləri torpaqları işğal edilmiş Azərbaycanın, yüz minlərlə məcburi köçkünün, minlərlə itkin ailəsinin deyil, işğalçı Ermənistanın, Azərbaycan cəmiyyətində heç bir nüfuzu olmayan, rüsvay olmuş bir qrup marginal elementin yanında yer aldı. Vətən müharibəsindən sonra bütün bunların, xüsusilə ölkələrin ərazi bütövlüyü və suverenliyinə münasibətdə ABŞ-nin fərqli yanaşmasının bir daha şahidi olduq. ABŞ-nin dinc yolla öz dədə-baba yurdlarına qayıdış xəttini seçən Qərbi Azərbaycan İcmasının elə həmin Entoni Blinkenə ünvanladığı məktuba heç bir reaksiya vermədiyini, lakin Azərbaycan xalqına qarşı etnik təmizləmə siyasətinin həyata keçirilməsində iştirak edən və bu günün özündə də Ermənistanda Azərbaycanın suverenliyini təhdid edən separatçılara qucaq açdığını, viza verdiyini, ABŞ-nin müxtəlif təsisatlarında çıxış etmək imkanı yaratdığını gördük. Özünü dini azadlıqlara hörmət edən ölkə kimi qələmə verən, "mötəbər" hesabatlar hazırlayaraq ölkələri müxtəlif uydurma siyahılara daxil edən, Qarabağda "erməni irsi"nin vəziyyəti ilə bağlı narahatlığını ifadə edən ABŞ-nin Azərbaycan xalqının Ermənistan ərazisində zəngin mədəni irsinin dağıdılmasını, təhrif edilməsini pislədiyini eşitmədik. Bütün bunlara görə də ABŞ Azərbaycan cəmiyyətində olan-qalan nüfuzunu da itirdi.

ABŞ "insan hüquqları" mövzusunu, yalan xəbər mediasını, "müstəqil" QHT-ləri Azərbaycana qarşı silah kimi istifadə etməkdənsə qoy özü ən əsas beynəlxalq insan hüquqları konvensiyalarına qoşulsun, müxtəlif beynəlxalq təşkilatların çoxsaylı hesabatında yer almış polis tərəfindən həddindən artıq gücün tətbiq edilməsi, hüquq-mühafizə orqanlarının irqi əsasda məlumatlar toplaması (racial profiling), strukturlaşdırılmış irqçilik kimi praktikalara son qoysun, silah zorakılığı problemini həll etsin, məhbuslara verilən işgəncə hallarını və digər qanunsuz əməlləri araşdırsın".

## Blinkenin bəyanatı ABŞ-nin təcavüzkar maraqlarının ifadəsidir

"ABŞ-nin Dövlət katibi Entoni Blinkenin Azərbaycanda insan hüquqları və azadlıqlarının qorunması ilə bağlı reallığı əks etdirməyən, məqsədli şəkildə situasiyanı təhrif edən bəyanatı beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsiplərlə daban-dabana zidd olan, qəbuledilməz davranışdır. Azərbaycanın daxili yurisdiksiyasında olan məsələlərə, o cümlədən ölkəmizdə məhkəmə-hüquq prosesinə və hüququn aliliyinə hörmətsizliklə ifadə olunan bu mövqe, əslində, Birləşmiş Ştatların regiondakı təcavüzkar maraqlarının təmin olunmasına yönələn təzyiq cəhdidir".



Bunu "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. O qeyd edib ki, Xarici İşlər Nazirliyinin ifadə etdiyi mövqedə də bildirildiyi kimi, bu məqsədli və qərəzli bəyanat ölkəmiz tərəfindən qətiyyətlə pislənilir və rədd edilir. Sirr deyil ki, Bayden Administrasiyasına qədərki dövrdə ABŞ və Azərbaycan arasında siyasi, iqtisadi, enerji və təhlükəsizlik məsələlərini əhatələyən nümunəvi əməkdaşlıq tarixçəsi mövcud olub. Lakin demokratların hakimiyyətə gəlməsi, xüsusən Entoni Blinkenin ABŞ-nin xarici siyasət kursuna rəhbərliyə gətirilməsi ilə Bakı ilə Vaşinqton arasında münasibətlər arzuolunmaz dövrünə qədəm qoyub. Dövlətlərimiz arasında bu və ya digər məsələlər üzrə mübahisəli məqamların yarandığı dövrdə, bir qayda olaraq, qeyri-hökumət təşkilatları və media, o cümlədən qanunvericilik hakimiyyətinin nümayəndələri vasitəsilə ABŞ-nin maraqlarının dilə gətirildiyi vaxtlardan fərqli olaraq Blinken Dövlət katibi kimi xarici siyasət idarəsinin resurslarını Azərbaycana qarşı açıq və diplomatik etiketə sığmayan şəkildə mübarizəyə səfərbər edib, beynəlxalq hüququn aliliyini bir kənara qoyaraq özünün və müavinlərinin bəyanatlarında ölkəmizə münasibətdə yolverilməz fikirlər səsləndirməyi adi hala çevirib.

"Məlumdur ki, bir müddət əvvəl bir qrup konqresmenin ABŞ-nin Dövlət Departamentinə Azərbaycanı hədəf alan tələbləri ehtiva edən məktub göndərməsinə münasibət bildirərkən cənab Prezident də həmin məktubun məhz Blinkenin özü tərəfindən özünə yazıldığını və bununla da onun ölkəmizə münasibətdə nə qədər qərəzli mövqe tutduğunu ifşa etmişdi. Məhz bu kimi davranışlar fonunda Azərbaycan-ABŞ münasibətləri özünün qeyri-məhsuldar xarakteri ilə yadda qalıb və Azərbaycan Xarici İşlər Nazirliyinin də ifadə etdiyi kimi, Bakı və Vaşinqton arasında münasibətlər üçün həmin dövr itirilmiş illər kimi qiymətləndirilir", - deyə B.Məhərrəmov bildirib.



Deputat vurğulayıb ki, Blinkenin ölkəmizdə insan hüquqları ilə bağlı mövcud vəziyyətə münasibətdə ikili standartlarla ehtiva olunan mövqedən çıxış etməsi regionda hər hansı formada dəyişikliyə, yaxud Azərbaycanın qlobal miqyasda nüfuzuna həlledici təsir etmək imkanında deyil: "Əksinə, Blinken bu gedişləri ilə ölkəsinin Cənubi Qafqaz siyasətini iflic vəziyyətinə salır və ABŞ-nin regionda maraqlarını tarixin heç bir dövründə olmadığı qədər zəiflədir. Eyni zamanda Entoni Blinken demokratların ənənəsinə müvafiq olaraq insan haqları, demokratiya meyarları və anlayışlarından siyasi təzyiq alət və vasitəsi kimi istifadə etməklə ölkəsinin qlobal miqyasda imicinə xələl gətirərək ABŞ-nin ümumbəşəri dəyərlərdən sui-istifadə edən subyekt olduğunu göstərir".

B.Məhərrəmov qeyd edib ki, Azərbaycan ümumbəşəri dəyərlərə sadiq qalaraq bütün dünya xalqları ilə, o cümlədən ABŞ ilə sülh və əmin-amanlıq şəraitində yaşamaqda və əməkdaşlıq etməkdə maraqlıdır. Ötən dövr ərzində işğala və təcavüzə açıq formada dəstək verən, ölkəmizin ərazi bütövlüyünü və suveren hüquqlarını bərpa etməsindən sonra təcavüzkar mahiyyətini gizlətməyən demokratlardan fərqli olaraq yeni administrasiyanın buraxılan səhvlərin nəticələrini aradan qaldırmaqla həm ABŞ və Azərbaycan arasında qarşılıqlı dostluq və tərəfdaşlıq münasibətlərinin bərpa olunmasına, həm də regionda sağlam maraqlarının təmin olunmasına çalışacağına ümid edirik.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Bayden Administrasiyası son günlərində də qərəzindən əl çəkmir

### Blinken Azərbaycana qarşı riyakar bəyanatı ilə erməni dəyirmanına su tökmək üçün sonuncu cəhdini etdi

**ABŞ** Dövlət katibi Entoni Blinkenin Azərbaycan əleyhinə növbəti bəyanatı bir daha sübut etdi ki, Bayden Adminstrasiyası gedər ayaqda da Azərbaycana qarşı qərəzindən əl çəkmək istəmir. Belə ki, ötən çərşənbə ABŞ Dövlət katibi ölkəmizdə insan hüquqları və azadlıqlarının qorunması ilə bağlı mövcud vəziyyəti təhrif edən, Azərbaycanın məhkəmə-hüquq prosesinə müdaxilə məqsədli riyakar bəyanat yayıb.

Ancaq onu da deyək ki, son dörd il ərzində ABŞ Dövlət Departamenti tərəfindən mütəmadi olaraq Azərbaycana qarşı ikilistandartlı yanaşmaları, eyni zamanda heç bir həqiqəti əks etdirməyən qərəzli bəyanatlar verilməsini müşahidə etdiyimiz üçün Blinkenin sözügedən son bəyanatı da bizim üçün təəccüblü olmadı.



### Blinkenin düşmənçiliyi

ABŞ Dövlət katibinin ölkəmizə qarşı sərgilədiyi bu davranış Amerika-Azərbaycan münasibətlərinə zərbə olmaqla yanaşı, Vaşinqtonun regionla bağlı düzgün siyasət yürüdə bilmədiyini də ortaya qoydu. 44 günlük Vətən müharibəsində qələbə qazanması və suverenliyini tam təmin etməsi ilə Cənubi Qafqazda reallıqları dəyişən Azərbaycanla münasibətlər yaxşı olmadan bu coğrafiyada hansısa iş görməyin mümkünsüzlüyünü Blinkenin bilmədiyini düşünmək belə yersizdir. Ancaq təəssüf ki, bəzən şəxsi ambisiyalar dövlət maraqlarından üstün olur. Fəaliyyət göstərdiyi dörd il ərzində ABŞ Dövlət Departamentini erməni lobbisinin maraqlarına xidmət edən maşaya çevirən Blinken açıq şəkildə Azərbaycana qarşı düşmənçilik siyasəti həyata keçirib.

Ölkəmizin COP29 kimi qlobal tədbirə evsahibliyi edəcəyi günlər ərəfəsində 60-a yaxın ermənipərəst konqresmenin ABŞ dövlət katibinə müraciət edərək Azərbaycana qarşı sanksiyaların tətbiqi kimi məsələləri gündəmə gətirmələri də təsadüfi olmayıb. Bununla əlaqədar Prezident İlham Əliyev bu il oktyabrın 4-də Cəbrayılda keçmiş məcburi köçkünlərlə görüşündə vurğuladı ki, Konqresdən gedən məktubun müəllifi ABŞ Dövlət Departamentidir: "Amma məndə bir zərrə qədər şübhə yoxdur ki, bu müraciət Amerika Dövlət Departamentində də yazılır. Yəni özləri özlərinə məktub yazırlar, bizi hədələmək üçün, bizi ittiham etmək üçün".

Etdiyi çıxışlarında mütəmadi olaraq Ermənistanın suverenliyinin qorunmasını dünyanın ən vacib məsələsi kimi qaldıran Blinken elə həmin ölkə tərəfindən onilliklər ərzində Azərbaycan torpaqlarının işğal altında saxlanmasından, suverenliyinə qəsddən, yüzminlərlə əhalisinin məcburi köçkünə çevrilməsindən heç zaman bəhs etməyib. ABŞ-nin keçmiş Minsk qrupunun həmsədri olaraq heç bir addım atmamasından və bu səbəbdən məhz ölkəsinin də münaqişənin sülh yolu ilə deyil, müharibə yolu ilə həll edilməsinə görə məsuliyyət daşımasından söz açmayıb.

### Azərbaycan-ABŞ münasibətləri üçün itirilmiş illər

Əksinə, təcavüzkar Ermənistanın 44 günlük müharibədə kapitulyasiyaya məcbur edilməsindən, antiterror tədbirləri ilə Qarabağda erməni separatizminin kökünün kəsilməsindən qəzəblənən ABŞ Dövlət katibi Azərbaycana qarşı bütün platformalarda hücuma keçib.

Kollektiv Qərbin siyasi iradəsi olmayan Ermənistan üzərindən Cənubi Qafqazda gərginlik yaratmaq niyyətləri hər kəsə məlumdur. Bu il aprelin 5-də Brüsseldə keçirilən və Blinkenin də iştirak etdiyi ABŞ-Aİ-Ermənistan üçtərəfli görüşünün hərbi komponentləri ehtiva etməsi də bölgədə müharibə planlarının cızıldığını ortaya qoydu.

Azərbaycan ilə Ermənistan arasında bu günə qədər sülh müqaviləsinin bağlanmamasına əsas səbəb də məhz ABŞ başda olmaqla, Qərb təsisatlarının İrəvanı revanşa həvəsləndirməsidir. Düzdür, müharibə variantının Ermənistanın fəlakəti olması bir ayrı məsələdir, amma bütün hallarda blinkenkimilərin bölgəni qan gölünə çevirmək kimi mənfur planlarından əl çəkmək istəmədikləri və sülhü dəstəkləmədikləri aydın görünür.



ABŞ Dövlət katibinin Azərbaycan əleyhinə yuxarıda bəhs etdiyimiz bəyanatı da Vaşinqtonun çirkin maraqlarına xidmət edir. Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən Blinkenin Azərbaycan əleyhinə bəyanatına dair şərhdə son 4 il ərzində Dövlət katibi Blinkenin rəhbərlik etdiyi ABŞ Dövlət Departamentinin Azərbaycanın daxili işlərinə müdaxilə ilə məşğul olması səbəbindən sözügedən dövr bir çox dönəmdə dostluq və əməkdaşlıq ilə yadda qalan Azərbaycan-ABŞ münasibətləri üçün itirilmiş illər kimi qiymətləndirilir: "Entoni Blinken tərəfindən ölkəmizdə insan hüquqları ilə bağlı mövcud vəziyyətə münasibətdə ikili standartlar mövqeyindən çıxış edilməsi ABŞ-nin bütövlükdə Cənubi Qafqaz siyasətini iflic vəziyyətinə gətirməsi hər kəsə yaxşı məlumdur".

Bəyanatda deyilir: "Ümidvarıq ki, yeni ABŞ Administrasiyası dövründə Azərbaycan və ABŞ arasında qarşılıqlı dostluq və tərəfdaşlıq münasibətləri bərpa olunacaq".

Bütün bu sadalanan və digər çoxsaylı faktlara əsaslanaraq tam əminliklə demək olar ki, Bayden Adminstrasiyası dövründə uzaq Amerikanın Yaxın Şərqlə, Cənubi Qafqazla bağlı yürütdüyü (əslində, yürüdə bilmədiyi) siyasət tarixə "Blinkenin yarıtmaz siyasəti" kimi düşəcək...

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Erməni sevdalısı Əsədin gözlənilən taleyi

**Suriyanın devrilmiş prezidenti Bəşər Əsədin ölkəsini qoyub qaçması barədə xəbərlərlə tanış olduqda hər bir azərbaycanlının xatirəsində 44 günlük müharibənin baş verdiyi günlər canlanır.**

Azərbaycan xalqının Vətən müharibəsindəki mücadiləsi bütün islam dünyası tərəfindən mənəvi dəstək gördüyü bir vaxtda müsəlman dövləti olan Suriyanın sabiq lideri Əsədin Ermənistanı müdafiə etməsi qeyri-adi təəssürat yaradırdı. Əslində isə, bu, yenilik deyildi. Ermənilərin, erməni diasporunun və erməni terrorçu təşkilatların dərin kök saldıqları və özlərini rahat hiss etdikləri Suriyanın hakim rejimi rəsmi İrəvana ilk dəfə deyildi ki, dəstəyini bildirirdi...



### Devrilmiş Suriya rejimi və erməni terrorçu şəbəkəsi

2011-ci ilin statistikasına görə, Suriyada 100 minədək erməni yaşayıb. Onların əksəriyyəti Hələb şəhərində məskunlaşıb. Elə indinin özündə də 30 min ermənininin əsas etibarilə bu şəhərdə yaşadıqları bildirilir. Suriyanın ticarət mərkəzi olan Hələbi Ermənistanla birləşdirən bir çox amil var. Sabiq erməni prezidenti Levon Ter-Petrosyan Hələbdə doğulub. Sovet hökumətinin azərbaycanlıları hazırkı Ermənistandan zorla deportasiya etməsi fonunda xaricdən, xüsusilə də Yaxın Şərqdən tarixi Azərbaycan torpaqlarına köçürülmüş erməni ailələrindən biri də Ter-Petrosyanın ailəsi olub. Yeri gəlmişkən, Ermənistanın eks-prezidentinin atası Akop Ter-Petrosyan Suriya və Livanda Kommunist Partiyasının yaradıcılarından biri olub.

Suriyanın başqa bölgələri - paytaxt Dəməşqdə və Latakiyada da ermənilərin sıx məskunlaşdıqları məlumdur. Ancaq Hələb ticarət mərkəzi olduğundan və kapitalın məhz burada təmərküzləşməsindən erməni terrorçu təşkilatlarının Suriyadakı özəkləri də məhz bu şəhərdə formalaşıb və fəaliyyət göstərib. Bu da təbii ki, Hələbdə yaşayan varlı ermənilərin maliyyə dəstəyi və Suriya dövlətinin buna göz yumması şəraitində olub. Hələ Birinci Qarabağ savaşı zamanı Azərbaycanın ərazi bütövlüyünə qarşı cinayət əməllərində Suriyadan gəlmiş çoxsaylı terrorçunun iştirak etdiyi də məlumdur. Onların hər birinin xalqımıza qarşı qanlı əməllərin icrasında xüsusi rolu var. Bu terrorçular məhz Suriyadakı keçmiş rejimin mövcudluğu şəraitində hazırlıq görüb Azərbaycan torpaqlarının işğalı üçün göndərilmişdilər. Özlərini siyasi partiya kimi təqdim edən, əslində isə, terrorçu qurumlar olan "Daşnaksütyun" və "Hnçak"ın Suriyada ənənəvi olaraq güclü və təşkilatlanmış özəkləri var. Bu təşkilatların dəstəyi və iştirakı ilə hazırlıq görmüş terrorçular Azərbaycanla yanaşı, qardaş Türkiyənin də bütövlüyünə münasibətdə fəaliyyət göstəriblər, xüsusilə də türk diplomatlarının qətlində, onlara qarşı törədilmiş terror əməllərində canfəşanlıq ediblər.

### Türk düşmənçiliyi

Ötən əsrin 90-cı illərində qardaş Türkiyənin ərazi bütövlüyünə qarşı terrorçu əməlləri ilə gündəmdə olan PKK lideri Abdullah Öcalanın bir müddət Suriyaya sığınıb orada yaşaması faktı da unudulmayıb. Təsadüfi deyildir ki, indinin özündə də Türkiyə əhalisinə qarşı terror əməllərini həyata keçirən fərqli qruplaşmaların bazaları və təşkil olunmuş şəbəkələri məhz Suriya ərazisində kök salıb. 2019-cu ildə yaradılmış daha bir terrorçu qruplaşma - YPG-nin üzvü Nubar Ozanyanın briqadası 44 günlük müharibədə Ermənistana dəstəyini bildirmişdi. Bu terrorçu qurumun həm Suriya, həm də Ermənistan xüsusi xidmət orqanları ilə sıx münasibətləri mövcuddur. 1991-1992-ci illərdə Qarabağda Azərbaycana qarşı cinayətlərin iştirakçısı olmuş Ozanyan sonralar Suriyada fəaliyyət göstərən "Beynəlxalq azadlıq batalyonu" tərkibində ermənilər və ərəblərlə yanaşı, Yunanıstan, Fransa, Belçika və Kanadadan buraya gəlmiş terrorçuların təliminə rəhbərlik edib.

Ermənilərin və Ermənistanın Bəşər Əsəd rejimi ilə münasibətləri yalnız bununla bitmir. Rəsmi İrəvanla Dəməşq arasında ənənəvi sıx münasibətlər mövcud olub. Özü də təkcə Paşinyan dövründə deyil, bütün hakimiyyətlərin fəaliyyətdə olduqları illərdə. Ermənistanın baş naziri Əsədi müxtəlif əlamətdar günlərdə mütəmadi olaraq təbrik etməklə yanaşı, Suriyaya erməni hərbi kontingentini yollamaqla da yadda qalıb. Erməni hərbçilər bu ölkədə guya minaların təmizlənməsi ilə məşğul olublar ki, bu da hazırkı reallığın acı paradoksudur: illər boyu Azərbaycan ərazilərini minalarla çirkləndirən Ermənistan Suriyada mina axtarır. Bu ölkədə erməni hərbçiləri minaları aşkar etməklə kimlərinsə həyatını "xilas edirlər", ancaq müharibənin bitməsindən 4 il keçməsinə baxmayaraq, bir vaxtlar işğal altında saxladıqları Azərbaycan ərazilərində hələ də vətəndaşlarımız bu təhlükədən həyatlarını itirirlər...

### Diktator rejiminin Ermənistanla mehriban əlaqələri

2009-cu ildə İrəvana səfəri zamanı katalikos II Qaregin Bəşər Əsədi erməni kilsəsinin ən ali mükafatı olan Müqəddəs Georgi xaçı ilə təltif edib. Eçmiədzinin yaydığı rəsmi məlumatda bildirilirdi ki, bu mükafat Əsədə "ermənilərə göstərdiyi dəstəyə və Ermənistanla münasibətləri inkişaf etdirdiyinə görə təqdim olunub". Mərasimdə II Qaregin bəyan edib ki, "Suriyanın 1915-ci il hadisələrində ermənilərə göstərdiyi dəstəyi xalqımız heç vaxt unutmayacaq". Qareginin bu təxribatçı bəyanatının səbəbi və məqsədi bəllidir, ancaq o da faktdır ki, 1915-ci ildə Suriya bir dövlət kimi mövcud deyildi, onun hazırda yerləşdiyi ərazi isə Osmanlı dövlətinin hüdudlarına daxil idi.

Suriyanın müsəlman dövləti olmasına baxmayaraq, Əsəd dövründə hər zaman ermənilərin tərəfini tutması dərin təəssüf hissi doğurub. Siyasi müstəvidə bu dəstək beynəlxalq təşkilatlar çərçivəsində aparılan fəaliyyətdə xüsusilə qabarıq biruzə verilib. Dəməşq Azərbaycanın təşəbbüslərinə qarşı çıxış edib, Ermənistanın maraqlarına cavab verməyən istənilən səsvermədə rəsmi İrəvanın tərəfini tutub. Diktator rejiminin bu siyasəti istənilən digər beynəlxalq təşkilatlarda hər hansı izaha malik olsa da, müsəlman birliklərində, məsələn, İslam Əməkdaşlıq Təşkilatında Azərbaycanın Ermənistanın işğalçı əməllərinə qiymətin verilməsi təşəbbüslərini bloklaması bütün islam dünyası tərəfindən təəccüblə qarşılanıb.

Əsəd Suriyası 14 mart 2008-ci ildə Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasında müzakirəyə çıxarılmış "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət haqqında" qətnamənin müzakirəsi zamanı səsvermədən boyun qaçırmaqla da yadda qalıb. Yeri gəlmişkən, bu hakimiyyət təkcə Azərbaycana deyil, qardaş Pakistana qarşı da belə davranaraq Kəşmir məsələsində Hindistana dəstək göstərib.

Bu gün B.Əsədin rəzil halda illərboyu rəhbərlik etdiyi ölkəni və xalqı qoyub qaçması təbiidir. Bunun xeyli Suriyadaxili səbəbləri var. Ancaq onun bir müsəlman olaraq qonşu dövlətlərdən, islam dünyasından hər hansı dəstək görməməsinin başlıca səbəbi məhz burada qeyd edilən faktlardır. Görəsən, Bəşər Əsəd ömrünün qalan hissəsində mehriban münasibətlərə malik olduğu, hər vəchlə himayə etdiyi ermənilərin yadına düşəcəkmi?..

Suriyada Əsəd rejiminin bitməsi qardaş Türkiyənin geosiyasi uğurudur. Rəsmi Ankara illərdir Suriya mövzusunda prinsipiallıq sərgiləyərək Əsədin öz xalqına qarşı əzazil münasibətini tənqid edir. Sıravi suriyalıların ölkədəki böhranlı vəziyyətdən qurtulmaq üçün Türkiyəyə pənah gətirmələri və türk xalqının müsəlman qonşularına qucaq açması müasir dünyada nadir hallarda izlənən humanizm nümunəsidir.

Şübhə yoxdur ki, Əsəd hakimiyyətinin Azərbaycana qarşı qərəzli mövqeyinin kökündə Ankara-Bakı strateji münasibətlərindən qorxu amili var idi. Tarixi bağlara və qardaşlıq əlaqələrinə əsaslanan Türkiyə-Azərbaycan müttəfiqliyi bəzi ölkələr kimi Əsəd Suriyasını da narahat edirdi. Ermənistanla mövcud olan sıx əməkdaşlıq onun hakimiyyətinin gündəngünə güclənən Türkiyə-Azərbaycan strateji münasibətlərinə qarşı siyasi tarazlıq yaratmaq cəhdi idi. Ancaq onun xalqın təzyiqi ilə ölkəsini qoyub qaçması bu siyasətin iflasa uğramasının aşkar göstəricisidir.

Suriyada Əsəd rejiminin fəaliyyətini dayandırması Ermənistanın arxalandığı perspektivsiz regional əməkdaşlıq konfiqurasiyasının antitürk və anti-Azərbaycan səylərinin nəticəsiz qaldığının daha bir nümunəsidir. Suriyada qardaş Türkiyə ilə xoş münasibətlərə malik qüvvələrin diktator rejiminə son verməsi regional qüvvələr düzülüşündə kardinal dəyişikliklərə səbəb olacaq. Yalnız bizim bölgədə deyil, o cümlədən Yaxın Şərq regionunda da Azərbaycan-Türkiyə birliyinin geosiyasi faktor olaraq önəmi daha da artacaq.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Ermənistanın Əsəd rejimi ilə əməkdaşlığı regional təhlükəsizliyi təhdid edirdi

"Suriya ilə Ermənistan arasında əlaqələr Bəşər Əsədin hakimiyyəti illərində sıx inkişaf edib. İrəvan-Dəməşq münasibətlərində açıq məqamlarla bərabər gizli trayektoriyalar da mövcud olub. Bu münasibətlər 2020-ci ildə Suriyanın qondarma "erməni soyqırımı"nı tanıması ilə nəticələnib".



Bu sözləri "Azərbaycan" qəzetinə Sosial Tədqiqatlar Mərkəzinin əməkdaşı Aqşin Kərimov deyib. Siyasi təhlilçi qeyd edib ki, bu amil Suriyada böyük və mütəşəkkil erməni icmasının və Ermənistanın proseslərdə Əsədə gizli yardım kampaniyasının böyüməsinə şərait yaradıb. Ermənistanın Suriyaya minatəmizləmə adı altında hərbi kontingent göndərməsi də məxfi sövdələşmənin intensivliyini və fasiləsizliyini göstərirdi. Maraqlısı budur ki, Əsədə düşmən kəsilmiş qüvvələr, xüsusilə Qərb Ermənistan hakimiyyətinin Dəməşqdəki rejimlə əlaqələrindən söz açmaqda maraqlı olmayıblar. Bu, ümumilikdə Ermənistanın Suriya səhnəsində gizli fəaliyyəti nəticəsində yaranan böyük sövdələşmələrin ruhunu konseptual olaraq əks etdirir.

"Üstəlik, Ermənistan İranın əməliyyatları ilə Suriya, oradan da Livana silah daşınmasında qabaqcıl dəhliz olub. Bu, regionda qaçaqmalçılığın inkişafına şərait yaradaraq, sülh və təhlükəsizlik infrastrukturunun yaradılmasına maneələr törədib. Bir sözlə, Ermənistanla Suriya əlaqələri ilk növbədə diplomatik-siyasi örtük altında olaraq inkişaf edib, lakin aparılan araşdırmalarla münasibətlərdəki əsl niyyətlər üzə çıxıb", - deyə o əlavə edib.

A.Kərimov bildirib ki, Əsəd rejiminin devrilməsindən sonra Ermənistanın regional səylərindəki məxfi gündəlik də pozulmuş sayılır. Bu baxımdan İrəvanın gizli marşrutlar üzrə istismar edilməsindən əldə etdiyi "üstünlük"lər də əldən çıxır. İndi həm Azərbaycan, həm də Türkiyə Cənubi Qafqazda prosesləri ətraflı şəkildə təhlil edirlər. Türkiyə Suriya proseslərindən sonra strateji regional qalibiyyətə bir addım da yaxınlaşıb və Cənubi Qafqazdakı gizli hücrələrə də nüfuz etmək imkanı qazanıb.

Siyasi təhlilçi vurğulayıb ki, bu mənada Azərbaycan və Türkiyə üçün əlavə strateji qazanc əldə etmək imkanları yaranıb: "Bu dividendlər nə qədər çox olarsa, Bakı-Ankara strateji müttəfiqliyi gələcək planlarına bir çox dəyişiklik edə, təhlükəsizlik üçün alternativləri tapa bilər. Bu paradiqmaların əlamətlərini ilk növbədə Zəngəzur dəhlizi ilə əlaqədar görə bilərik".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# İstefalar Ermənistanı xaosa sürükləyir







**Ermənistanda son aylarda baş tutan istefalar ölkədə ictimai-siyasi proseslərin daha gərgin mərhələyə qədəm qoyduğunu göstərir. Yerli mətbuatın yazdığına görə, yüksək vəzifəli şəxslərin istefası hələ davam edəcək.**

Bir müddət əvvəl keçmiş ədliyyə naziri Qriqor Minasyanın müavini Sirvard Gevorqyan istefa verdiyini açıqlamışdır. Gevorqyan qərarını iki müxalif siyasi düşərgənin təzyiqi və manipulyasiyası ilə izah edib və bildirib ki, öz mövqeyini qorumaq üçün dostlarını və həmkarlarını təhlükəyə atmağa hazır deyil. Gevorqyanın istefası hakim fraksiya deputatlarının istefasını tələb edən ədliyyə naziri Qriqor Minasyana təzyiqlər fonunda baş verib.

Xatırladaq ki, Ermənistanın ədliyyə naziri Qriqor Minasyan istefa verib. Bundan 10 gün sonra isə Ermənistanın ərazi idarəetmə və infrastruktur nazirinin müavini Akop Vardanyan tutduğu vəzifədən istefa ərizəsi yazıb. Vardanyan bu vəzifəni 2018-ci ilin iyun ayından tutub və əvvəllər Ermənistanın Elektrik Şəbəkələri, "Tashir Group" və Yüksək Gərginlikli Elektrik Şəbəkələri şirkətlərində rəhbər vəzifələrdə çalışıb. Oktyabrın 10-da Dövlət Xidmətlərinin Tənzimlənməsi Komissiyasının sədri Qaregin Baqramyanın da istefa verdiyi məlum olub.

Ermənistanda istefa zəncirinin növbəti halqası isə iqtisadiyyat nazirinin müavini Narek Teryan olub. Teryan da tutduğu vəzifədən istefa ərizəsi yazıb. O, 2021-ci ilin aprelində baş nazir Nikol Paşinyanın qərarı ilə iqtisadiyyat nazirinin müavini təyin edilmişdi.

Bu günlərdə Ermənistan parlamentində elektrik təchizatı ilə bağlı dinləmələr keçirilib və bu sektora cavabdeh şəxslər kəskin tənqid edilib. Ermənistan parlamentinin deputatı Akop Aslanyan hakim "Mülki müqavilə" fraksiyasından xaric edilib.

Fraksiyanın katibi Artur Ovannisyan bildirib ki, dekabrın 11-də A.Aslanyan keçmiş fraksiya həmkarı Ovik Ağazaryanın məhkəməsi ilə əlaqədar "Mülki müqavilə" fraksiyasında iştirakını bir ay müddətinə dayandırdığını bəyan edib. O, sosial şəbəkədəki səhifəsində bəyanatın skrinşotunu yerləşdirərək, partiya ilə əməkdaşlığı "dondurmaq" qərarının səhv olduğunu bildirib. Eyni zamanda skrinşotda mətnin ona Ermənistanın yüksək texnologiyalı sənaye naziri Mxitar Ayrapetyan tərəfindən göndərildiyi görünür.

"Cənab Aslanyan fraksiya və partiyanın nizamnaməsini pozduğuna görə uzaqlaşdırılıb (xaric edilib - red.). Bu gün verdiyi açıqlamaları gördünüz. Fraksiyanın qərarı ilə xaric edildi", - bunu partiyanın katibi deyib.

Ovannisyan qeyd edib ki, fraksiyadan xaric edilən digər deputat Ovik Ağazaryan iclaslardan məlumatların "sızmasını" təşkil edib. Deputatın nöqteyi-nəzərindən Ağazaryanı müdafiə etmək cəhdləri də analoji sonluqla (yəni fraksiyadan kənarlaşdırılma - red.) yekunlaşmalı idi.

A.Aslanyanın partiyadan çıxarılması məsələsi "Mülki müqavilə"nin İdarə Heyətində müzakirə olunacaq. Deputat mandatının təhvil verilməsinə gəlincə, Ovannisyan qeyd edib ki, Aslanyan hələlik qərarını açıqlamayıb. Fraksiya katibinin sözlərinə görə, A.Aslanyan çox güman ki, deputat mandatından imtina etmək istəmir. Aslanyan isə hazırkı duruma "şərh yoxdur" deməklə kifayətlənib. Xatırladaq ki, dekabrın 4-də "Mülki müqavilə" partiyası deputat Ovik Ağazaryanı da sıralarından xaric edib. Bu barədə partiyanın sosial şəbəkədəki səhifəsində məlumat verilib. "İdarə Heyətinin qərarı ilə Ovik Ağazaryan dövlət və partiya əhəmiyyətli məxfi məlumatları sızdırdığına, habelə etik normaları kobud şəkildə pozduğuna görə "Mülki müqavilə" Partiyasından xaric olunub", - deyə məlumatda bildirilib.

Bu arada hakim "Mülki müqavilə" fraksiyasından daha bir deputat Davit Aruşanyan da mandatından imtina edib. Erməni analitik Manvel Levonyan bu fonda hesab edir ki, Paşinyan və komandasının həll etməsi vacib olan ciddi problemlər var: "Müharibədəki məğlubiyyətdən sonra Paşinyanı çevriliş yolu ilə hakimiyyətə gətirən cəmiyyət ondan inqilabi islahatlar və Ermənistanı böhran bataqlığının içindən çıxarmağı gözləyir. Lakin erməni ekspertlər bu barədə pessimistdirlər. Hesab edilir ki, Nikol Paşinyanın komandası tərəfindən konkret nəticələrin əldə edilməsinə hesablanmış təbliğat tezisləri praktikada müsbət nəticələrin əldə edilməsinə imkan verməyəcək. Hesab edilir ki, Paşinyan vəd etdiyi islahatları yerinə yetirmək əvəzinə keçmiş hakimiyyətin siyasətini davam etdirsə, Ermənistanda daha böyük problemlər yaranacaq".

İndi sual olunur, hazırda hakimiyyətdə olanlar xalqın istədiklərini onlara verə bilmək bacarığına malikdirlərmi? İstefalar və daxili qarşıdurma fonunda belə görünür ki, yox. Belə olan təqdirdə aydın məsələdir ki, Ermənistanda yoxsulluq, korrupsiya, işsizlik daha da artacaq.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***




# ÜDM istehsalı 4,1 faiz artıb

**11 ayda ölkə üzrə 113 milyard 282,4 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,1 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.**




İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,4, qeyri-neft-qaz sektorunda 6,4 faiz artmışdır. Dövlət Statistika Komitəsinin açıqlamasına görə, ÜDM istehsalının 37,1 faizi sənaye, 10 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,2 faizi tikinti, 6,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə sahələrinin, 19,2 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 10 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 11104,2 manata bərabər olmuşdur.

# Əsas kapitala 15,9 milyard manat investisiya yönəldilib

**Dövlət Statistika Komitəsinin məlumatına əsasən, yanvar-noyabr aylarında əsas kapitala 15 milyard 910,3 milyon manat, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,8 faiz az investisiya yönəldilmişdir.**




Neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 9, qeyri-neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 1,1 faiz azalmışdır. İstifadə olunmuş investisiyanın 8 milyard 138,8 milyon manatı (51,2 faizi) məhsul istehsalı, 5 milyard 617,8 milyon manatı (35,3 faizi) xidmət sahələrinə, 2 milyard 153,7 milyon manatı (13,5 faizi) yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. 13 milyard 66,5 milyon manatını (82,1 faizini) daxili investisiyalar təşkil etmiş, əsas kapitala yönəldilmiş sərmayələrin 11 milyard 434,8 milyon manatı (71,9 faizi) bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə xərclənmişdir.

# 366,9 min şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi bu ilin yanvar-noyabr aylarında 366,9 min şəxsi aktiv məşğulluq tədbirləri ilə əhatə edib.**



Onlardan 149 min şəxs münasib işlərlə təmin olunub, 16,1 min şəxs isə kiçik ailə təsərrüfatlarını yaratmaları üçün özünüməşğulluq proqramına cəlb edilib.

Cari ilin 11 ayında 14,5 min işsiz şəxs üçün isə peşə hazırlığı kursları təşkil olunub, 187,3 min şəxsə peşəyönümü xidmətlər göstərilib.

## İlə yekun vurulur

# Azərbaycan təbii qazının alıcıları çoxalır

**Cari ilin ötən 11 ayında ölkəmizdən qaz ixracı ahəngdar davam edib və keçən ilin müvafiq dövrü ilə müqayisədə 5 faiz artıb. Bu il Azərbaycandan qaz idxal edən ölkələrin sayı da çoxalıb.**

Hələlik sonuncu idxalçı Slovakiyadır. Belə ki, bu ayın 1-dən Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən Slovakiyanın ən böyük dövlət enerji təchizatçısı olan SPP şirkətinə qaz təchizatına başlanılıb. SOCAR-dan verilən məlumata görə, qaz təchizatı bu şirkət və SPP arasında qısamüddətli pilot müqavilə əsasında reallaşdırılan əməkdaşlıq çərçivəsində həyata keçirilir. Şirkətlər daha uzunmüddətli enerji tərəfdaşlığını inkişaf etdirməyi hədəfləyirlər.

Bu qaz təchizatları sayəsində SOCAR öz ixrac istiqamətlərini şaxələndirməyə davam edir. İndi Azərbaycandan 12 ölkə mavi yanacaq alır. Bunlar Gürcüstan, Türkiyə, İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya və Slovakiyadır.

Qaz ixracının artırılması üçün bir sıra vacib şərtlər var ki, bunlardan biri də hasilatın artırılmasıdır. Bu il ixracın artırılmasına imkan verən də məhz çıxarılan qazın həcmi olub. Belə ki, yanvar-noyabr aylarında 45,8 milyard kubmetr təbii qaz hasil edilib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 4,1 faiz çoxdur. Energetika Nazirliyinin məlumatına görə, qazın xeyli hissəsi - 25,3 milyard kubmetri "Şahdəniz" yatağından hasil olunub. Məlum olduğu kimi, "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan neftlə yanaşı səmt qazı da çıxarılır ki, bunun da həcmi 12,1 milyard kubmetr təşkil edib. 1,4 milyard kubmetr qaz son dövrdə hasilata başlayan "Abşeron" yatağından alınıb. Qalan 7 milyard kubmetr qaz isə SOCAR-ın istismarında olan yataqların payına düşüb. Ümumilikdə ölkə üzrə ötən ilin müvafiq dövrünə nisbətən 1,8 milyard kubmetr artımla qaz hasil edilib.



Yeri gəlmişkən qeyd edək ki, "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları istismara veriləndən cari il dekabrın 1-dək 648,4 milyon ton neft (qaz kondensatı ilə birlikdə), 462,8 milyard kubmetr qaz verib. "Azəri-Çıraq-Günəşli"dən 600,1 milyon ton neft, 228,5 milyard kubmetr qaz, "Şahdəniz"dən 48,3 milyon tona yaxın kondensat, 234,3 milyard kubmetr qaz çıxarılıb. Bu yataqlardan 646,4 milyon ton neft, 167,6 milyard kubmetr qaz ixraca nəql edilib.

İlin əvvəlindən hasil olunan mavi yanacağın həcminin yarısı ixraca yönəldilib. 11 ayda xaricə qaz satışı 22,9 milyard kubmetr təşkil edib ki, bu da qeyd edildiyi kimi, 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 5 faiz çoxdur.

İxrac üçün daha bir vacib şərt infrastukturun olmasıdır ki, Azərbaycan bu sahədə də sanballı layihələr gerçəkləşdirib. Gürcüstana qaz Cənubi Qafqaz Boru Kəməri (CQBK) ilə 2006-cı ildən ixrac edilir. Növbəti ildən isə qaz Gürcüstan-Türkiyə sərhədində CQBK-ya qoşulan 280 kilometrlik əlavə xətlə Ərzuruma çatdırılır. Bütövlükdə bu xətt Bakı-Tbilisi-Ərzurum kəməri adlanır. Türkiyəyə qaz həmçinin 2018-ci ilin ortalarından TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) vasitəsilə nəql edilir.

Avropa isə Azərbaycan qazını 2020-ci ilin son günündən almağa başlayıb. Qazı qoca qitəyə "Cənub qaz dəhlizi"nin sonuncu seqmenti olan TAP (Trans-Anadolu Qaz Boru Kəməri) çatdırır. Xatırladaq ki, dəhlizin digər seqmentləri genişləndirilmiş CQBK və TANAP-dır. "Cənub qaz dəhlizi"nin yeni interkonnektorla şaxələndirilməsi ixrac coğrafiyasının getdikcə genişlənməsinə imkan yaradır. 2022-ci il oktyabrın 1-də Bolqarıstanın Sofiya şəhərində Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) açılışı mərasimi keçirilib.

2023-cü il dekabrın 10-da isə Serbiyanın Niş şəhərində Serbiya-Bolqarıstan Qaz İnterkonnektoru açıldı.

Beləliklə, bu ilin 11 ayında Gürcüstana 2,2 milyard kubmetr qaz ötürülüb. Avropaya ixrac olunan qaz 11,7 milyard kubmetr (7,8 faiz artım) təşkil edib. Türkiyəyə 9 milyard kubmetr qaz (3,4 faiz artım) satılıb. Bu həcmin 5,1 milyard kubmetri TANAP-la nəql olunub.

Hazırda ölkəmiz özünün "yaşıl enerji" layihələrinə doğru da inamla irəliləyir. Bu layihələrin gerçəkləşməsi nəticəsində xeyli qaza qənaət ediləcək ki, onu da ixraca yönəltmək mümkün olacaq. Azərbaycan gələcəkdə eyni zamanda "yaşıl enerji" ixracatçısı da olacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Orta dəhlizin daha çox yüklənməsi barədə razılıq əldə edilib

**Hazırda dünyada baş verən müharibələrin və kəskin qarşıdurmaların qlobal ticarətin aparıldığı ənənəvi marşrutlarda problemlər yaratması haqqında yazmışdıq. Onu da yazmışdıq ki, belə vəziyyət beynəlxalq ticarət və təchizatda aktivliyin aşağı düşməsinə səbəb olub və o üzdən yeni və təhlükəsiz marşruta ehtiyac yaranıb. Və bu zaman məlum olub ki, hazırda Orta dəhliz ticarətin aparılması üçün ən əlverişli marşrutdur.**



Ona görə də bu gün maraqlı dövlətlər, beynəlxalq maliyyə qurumları və qlobal nəqliyyat təşkilatları Orta dəhlizin yükdaşıma qabiliyyətinin artmasında maraqlıdırlar. Bu marşrutun imkanlarını genişləndirmək üçün Azərbaycan da maraqlı tərəflərlə əməkdaşlığı artırır. Məqsəd məlumdur - Orta dəhliz vasitəsilə daha çox yük daşınmasına nail olmaq. Bunun üçünsə marşrutun ərazisindən keçdiyi bütün ölkələrin və maraqlı tərəflərin səyləri birləşdirilməlidir. Son dövrlər Orta dəhlizlə bağlı keçirilən toplantılar, qəbul edilən qərarlar həm də məhz buna xidmət edir.

Dünya Bankının Direktorlar Şurası Türkiyənin elektrik dəmir yolu nəqliyyatını inkişaf etdirmək səylərini dəstəkləmək üçün 660 milyon dollar məbləğində maliyyə dəstəyini təsdiqləyib. Vəsait Türkiyənin şərqində, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (TBNM - Orta dəhliz) bir hissəsi olan Divriği-Qars hissəsində dəmir yolu bağlantısının imkanlarının genişləndirilməsinə sərf olunacaq. Vəsaitin ayrılmasında məqsəd dizel qatarlarının elektrik qatarları ilə dəyişdirilməsini və Sivasın Divriği rayonu ilə Gürcüstanla sərhəddə yerləşən Qars arasındakı 660 kilometrlik dəmir yolunun tam elektrikləşdirilməsini və modernləşdirilməsini təmin etməkdir. İcra ediləcək layihə dörd əyaləti - Sivas, Ərzincan, Ərzurum və Qarsı birləşdirəcək və marşrut boyunca təxminən 600 min sakinin rifah halını yaxşılaşdıracaq, yerli biznes və kənd təsərrüfatı müəssisələrinə əhəmiyyətli dəstək vermiş olacaq.

Ən əsası, layihə başa çatdıqdan sonra dəmir yolu ilə yükdaşıma qabiliyyəti ildə təqribən 750 min tondan 20 milyon tona yüksələcək ki, bu da TBNM-dəki əsas dar boğazın aradan qaldırılmasına imkan yaradacaq. Həmçinin layihənin 2030-cu ilə qədər ildə 72332 ton karbon emissiyasının qarşısını alacağı gözlənilir. 2060-cı ilə qədər isə bu rəqəmin ildə 245835 tona yüksələcəyi proqnozlaşdırılır. Ümumi dəyəri 800 milyon dollar olan layihənin icrası Orta dəhliz kimi də tanınan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu - Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan, həmçinin Türkiyədən keçən və Avropa ölkələrinə qədər uzanan beynəlxalq nəqliyyat yolunun yükötürmə qabiliyyətini daha da artıracaq. Qazaxıstan və Çin Orta dəhlizin önəmli ölkələrindəndir. Hər iki dövlət Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafı və bu dəhlizin birgə yüklənməsi barədə razılığa gəliblər. Bu barədə məlumatı Qazaxıstanın Nəqliyyat Nazirliyi açıqlayıb.

Bildirilib ki, razılaşma Qazaxıstan və Çinin nəqliyyat nazirləri Marat Karabayev və Lyu Vey arasında Pekində keçirilən görüşdə əldə olunub. M.Karabayevin Pekinə işgüzar səfəri çərçivəsində tərəflər dəmir yolu və avtomobil daşımaları sahəsində yüklərin həcminin, habelə ölkələr arasında reyslərin sayının və TBNM üzrə daşımaların əhəmiyyətli dərəcədə artdığını qeyd ediblər. Hazırda Çindən TBNM üzrə (Çin-Avropa istiqamətində) daşımaların həcmi 27 min 20 futluq konteyner ekvivalentini ötüb ki, bu da 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 25 dəfə çoxdur.

Tərəflər söhbət zamanı TBNM marşrutunun birgə inkişafı, həmçinin yüklərin fasiləsiz keçidinin təmin edilməsi üzrə daimi işçi qrupun yaradılması və bu dəhlizin birgə yüklənməsi barədə razılıq da əldə ediblər. Həmin razılaşmalar çərçivəsində bu ilin dekabrında Çindən TBNM dəhlizi üzrə litium-ion batareyalarının daşınması üçün sınaq reysinin işə salınması gözlənilir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# İqtisadi sektorda orta aylıq nominal əməkhaqqı 1000 manata yaxındır

**Cari il noyabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 773,3 min nəfər olmuşdur. Onlardan 881,7 min nəfəri iqtisadiyyatın dövlət, 891,6 min nəfəri qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, muzdla işləyənlərin 18,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 18,4 faizi təhsil, 12,8 faizi sənaye, 8,5 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,8 faizi tikinti, 6,4 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,8 faizi peşə, elmi və texniki fəaliyyət, 3,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,2 faizi maliyyə və sığorta fəaliyyəti, 15 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

Bu ilin yanvar-oktyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 7,8 faiz artaraq 993,2 manata çatmışdır. Mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

# Qazancımızın 50,6 faizi ərzağa xərclənir

**İlin əvvəlindən ötən 11 ay ərzində pərakəndə ticarət şəbəkəsindən istehlakçılara 53 milyard 867,7 milyon, o cümlədən 29 milyard 534,8 milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 24 milyard 332,9 milyon manatlıq qeyri-ərzaq malları satılmışdır.**

2023-cü ilin eyni dövrü ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 3,8, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 2, qeyri-ərzaq malları üzrə 6,1 faiz artmışdır. Dövlət Statistika Komitəsi həmçinin bildirir ki, hesabat dövründə alıcıların pərakəndə ticarət şəbəkəsində aldıqları mallara xərclədiyi vəsaitin 50,6 faizi ərzaq məhsullarının, 4,2 faizi içkilər və tütün məmulatlarının, 15 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,8 faizi avtomobil benzini və dizel yanacağının, 5 faizi elektrik malları və mebellərin, 2,1 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 1,2 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 16,1 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunmuşdur.



Bu aylar ərzində qeyri-dövlət sektorunun təsərrüfat subyektləri tərəfindən satılmış malların dəyəri əvvəlki ilin eyni dövrü ilə müqayisədə real ifadədə 3,8 faiz artaraq ümumi pərakəndə ticarət dövriyyəsinin 99,7 faizini təşkil etmişdir. 2023-cü ilin yanvar-noyabr ayları ilə müqayisədə 2024-cü ilin yanvar-noyabr aylarında pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 9,7, fərdi sahibkarlar üzrə 1, bazar və yarmarkalarda 3,1 faiz artmışdır. Pərakəndə ticarət şəbəkəsində əhalinin bir nəfəri orta hesabla ayda 480, o cümlədən 263,2 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 216,8 manatlıq qeyri-ərzaq malları almışdır.





# Mədəniyyət





Sənət dünyamız

## "Mən həyata, reallığa bağlı insanam"

Müxtəlif peşə sahibləri ilə görüşüb söhbət edəndə, onların işi ilə yaxından tanış olanda, yazıb-yaratdıqlarını görəndə həm sənətlərinə, həm də sənətkarlıqlarına heyran qalırıq. Nə gizlədək, onların möcüzələrlə dolu sənət aləmləri bizi sehirləyəndə hərdən ürəyimizdən bu sahənin adamı olmaq da keçir. Amma nə edəsən ki, hər şey təkcə ürəkdən keçirməklə, arzulamaqla deyil. Gərək bu işin, bu sənətin peşəkarı olasan. Başqa sənət adamlarını deyə bilmərik, amma rəssamların işlərinə baxanda nədənsə həyatı gözəl bir tablo kimi təsəvvür edirik. Daim bu xoş təsəvvür və gözəl mənzərə içində yaşadıqca yaşamaq istəyirik.



Bu günlərdə Bakının qədim kəndlərindən biri olan Balaxanıda yaşayan rəssam Əzizbala Dadaşovla görüşüb söhbət etdik. Onun bir-birinə bənzəməyən əsərləri bizdə xoş təəssüratlar oyatdı. Yaradıcılığı ilə yaxından tanış olmazdan əvvəl ömür yolunu qısaca vərəqlədik. Öyrəndik ki, Əzizbala Kamalpaşa oğlu Dadaşov 9 oktyabr 1964-cü ildə Balaxanıda dünyaya göz açıb. Kənddəki 259 nömrəli orta məktəbdə təhsil alıb. Kiçik yaşlarından rəssamlıq sənətinə maraq göstərib. 1981-1983-cü illərdə Bakı şəhərindəki 84 nömrəli texniki-peşə məktəbində metal üzərində döymə ixtisasının sirlərinə yiyələnib. Zaman keçdikcə bu sənətə marağı artan Əzizbala ali təhsil almaq qərarına gəlib. 1987-ci ildə Azərbaycan Dövlət İncəsənət Universitetinin Bədii xalçaçılıq fakültəsinə qəbul olunub. 1992-ci ildə universiteti uğurla başa vurub. Arxada qalan beşillik təhsil ona bu sənətin bütün incəliklərini öyrədib.

Əzizbala hazırda müstəqil rəssam kimi fəaliyyət göstərir. Azərbaycan Rəssamlar İttifaqının üzvüdür. Onun kətana çəkdiyi, metal üzərində döydüyü əsərlərə, eskizləri əsasında toxunan xalçalara heyran qalmamaq mümkün deyil. Əsərlərinə tamaşa etdikcə şahidi oluruq ki, Ə.Dadaşov bacarığı, peşəkarlığı və işgüzarlığı ilə mümkün olmayanları mümkün edir. Qırx ildən çoxdur ki, bu sənəti yaşada-yaşada ziyarətçilərin zövqünü oxşayan bir-birindən maraqlı əsərlər çəkir.



### Çəkdiyi ilk əsərlər atasını da sevindirib

Əzizbala Dadaşov çox da uzun çəkməyən söhbətinə ürəyində rəssamlığa maraq oyanan günlərdən cığır saldı: "Bu sahəyə həvəsim və marağım hələ orta məktəbdə, beşinci sinifdə oxuyan günlərdən başladı. Bizi tez-tez şəhərdəki muzeylərə, sərgilərə aparırdılar. Ziyarətinə getdiyim mədəniyyət ocaqlarında gördüyüm rəsm və döymə əsərləri diqqətimi cəlb edirdi. Sanki qısa müddət ərzində ürəyimdə bu sahəyə sevgi ocağı qalandı. Hərdən evdə döymə işləri görürdüm. Atam neftçıxarma idarəsində sürücü işləyirdi. Mənim bu sahəyə marağımı görəndə bir gün dedi ki, "bala, işimizdə milliyyətcə yunan olan Anatoli adında alim var. O da istirahət vaxtlarında sənin kimi belə döymə işləri görür. Gəl bir gün səni onun yanına aparım. Xahiş edim ki, bu sənətin sirlərini sənə də öyrətsin". Atamın dedikləri ürəyimcə oldu.

Bir gün dərsdən qayıtdıqdan sonra onun idarə etdiyi yük maşınına minib işlədiyi neft mədənlərinə getdik. Anatoli ilə yaxından tanış olduq. Atamın dediyi kimi, o, çox mehriban adama oxşayırdı. Onun işlədiyi yerdə balaca bir otağı var idi. Bütün rəssamlıq işlərini burada görürdü. Milliyyətcə yunan olsa da, Azərbaycan dilində sərbəst danışırdı. Anatoli əvvəlcə özünün döymə işlərini mənə göstərdi. Onun metal üzərində döymə üsulu ilə çəkdikləri muzeylərdə, sərgilərdə nümayiş olunan əsərlərdən heç də geri qalmırdı. Doğrudan da, Anatoli atamın dediyi kimi yaxşı alim idi. İki ilə yaxın onun yanında təcrübə keçdim. Sağ olsun Anatoli, bu sənəti mənə həm öyrətdi, həm də sevdirdi. İki il ərzində döymə sənətinin sirlərinə dərindən yiyələndim.

Günlərin birində Anatoli mənə metal üzərində döymə üsulu ilə əsər çəkməyi tapşırdı. Böyük həvəslə onun tapşırığını yerinə yetirməyə başladım. Özümə ilk müəllim bildiyim Anatoli metal üzərində döydüyüm rəsmləri bəyəndi, haqqımda xoş sözlər dedi. Çəkdiklərimin bəyənilməsi məni yeni əsərlər yaratmağa həvəsləndirdi. Atam da döymə yolu ilə metal üzərinə çəkdiyim əsərlərə baxanda xeyli sevindi".

Söhbətimiz zamanı Əzizbala Dadaşov 23 il əvvəl ilk və son dəfə keçirdiyi şəxsi sərgisindən söz açaraq dedi:

- 2001-ci ildə Balaxanı kəndində ilk dəfə şəxsi sərgimi keçirdim. Sərgiyə yüzdən çox əsər çıxarmışdım. İlk tədbirim olduğuna görə bir az narahatlıq keçirirdim. Düşünürdüm ki, görəsən ziyarətçilər əsərlərimi necə qarşılayacaqlar? Bu narahatlığın içində sevinc qığılcımları da parlayırdı. Ümid edirdim ki, baxanlar əsərlərimi bəyənəcək, sənətkarlığıma yüksək dəyər verəcəklər. Hər şey ümid etdiyim kimi oldu. Sərgi ziyarətçilər tərəfindən maraqla qarşılandı, əsərlərimə yüksək dəyər verildi, ünvanıma xoş sözlər deyildi. Rəsm əsərlərimlə bərabər, metal üzərindəki döymə işlərim də böyük rəğbətlə qarşılandı.

Rəssam Əzizbala Dadaşov indiyə qədər onlarca maraqlı rəsm əsəri çəkib, metal üzərində döymə işləri görüb. İşlərinə diqqətlə fikir verdikcə, araşdırdıqca, təhlil etdikcə görürük ki, rəssamın yaradıcılığı hərtərəfli, geniş və əhatəlidir. Əzizbalanın emalatxanasının divarlarını Azərbaycanın görkəmli şairləri Nizami Gəncəvinin, Məhəmməd Füzulinin, İmadəddin Nəsiminin, Əfzələddin Xaqaninin, Mirzə Ələkbər Sabirin və başqalarının portretləri və döymə işləri bəzəyir. Rəssamın emalatxanasında dünyanın məşhur dramaturqu Şekspirə, görkəmli hind yazıçısı və filosofu Rabindranat Taqora, həkimlər həkimi İbn Sina və başqalarına həsr olunmuş əsərləri də gördük.




Söhbət zamanı öyrəndik ki, Ə.Dadaşov təbiət mənzərələrini də, Azərbaycanın görkəmli rəssamlarının portretlərini də sevə-sevə çəkir. Hazırda görkəmli rəssam Səttar Bəhlulzadənin portreti üzərində döymə işləri aparır. Yaxın günlərdə əlindəki bu işi yekunlaşdırmağı planlaşdırır.

### Hər sənətkarın öz yolu olmalıdır

Doymaq və yorulmaq bilmədiyimiz söhbətindən, hikmət dolu sözlərindən hiss etdik ki, Əzizbalanın ədəbiyyata da böyük marağı var. Rəssam rəsm, döymə və xalça üzərində iş aparmaqla yanaşı, həm də mütaliəsindən də qalmır. Bu vacib işə də vaxt ayırır. Həm klassik, həm də müasir yazıçı və şairlərin əsərlərini oxuyur. Əzizbala filosofların həyat və yaradıcılığı ilə də dərindən maraqlanır. Yaratdığı əsərlər də özünün fəlsəfi düşüncələrindən yaranır. Buna görə də baxanları düşündürür, onları qırılmaz tellərlə həyata bağlayır. İş masasının üzərində yunan filosofu Senekanın balaca büstünün olması yazdıqlarımızı bir daha təsdiq edir.

Əzizbala deyir ki, rəssam nə çəkirsə, gərək sevgi ilə çəksin. Sevgi ilə çəkilməyən rəsm əsəri sənətkarın istədiyi kimi alınmır, istədiyi kimi yaranmır. Nə öz zövqünü oxşayır, nə də baxanlara xoş ovqat bəxş edir. Əgər sənətkar sənətinə sevgi ilə yanaşsa, sənət onu zirvələrə yüksəldəcək. Yox, əksinə, sənətinə sevgi ilə yanaşmasan, arzusunda olduğun zirvələri fəth elə bilməyəcəksən. Mən sənətimə sevgi ilə yanaşıram. İstəyirəm ki, çəkdiyim əsərlər insanın zövqünü oxşasın, onu düşündürsün, ona xoş anlar yaşatsın.



Yaradıcı insanların, o cümlədən rəssamların da bəziləri yuxularında gördükləri mənzərələri çəkirlər. Buna münasibətini soruşanda Əzizbala dedi: "Bəli, elə rəssamlar olub və bu gün də var. Amma bunu hamıya şamil etmək olmaz. Hər bir sənətkarın öz yaradıcılıq yolu, öz üsulu, üslubu var. Şəxsən mən yuxu məsələsini özümə yaxın buraxmıram. Çünki ruhən, qəlbən həyata bağlı insanam, yuxularla yaşayanlardan deyiləm. Yalnız fikir dünyamda tüğyan edən öz fantaziyalarımla yaşayıb yaradıram. Sənətkarın öz fantaziyası olmalıdır. Fantaziyasız çəkilmiş bir rəsm əsəri, yazılmış bir bədii nümunə heç vaxt maraqla qarşılanmır. Tamaşaçı, oxucu zövqünü oxşamaz, onu düşündürüb xəyallar aləminə aparmaz".

Tanınmış rəssam onu da dedi ki, bəzən eyni vaxtda bir neçə əsər üzərində işləyir. Həm rəsm əsəri çəkir, həm xalça üçün eskizləri cızır, həm də metal üzərində döymə işləri aparır. Nə qədər hərəkətdə olsa da, işindən zövq alır, mənəvi rahatlıq tapır. Yorğunluğu heç vaxt yaxınlığına buraxmır. Yorğun halda iş gördüyü günü xatırlamır. Başı yaradıcılıq işlərinə o qədər qarışır ki, vaxtın, zamanın necə keçdiyini də hiss etmir. Yaradıcılıq anlarında insan sanki özünü unudur, xəyallar aləminin labirintlərində azıb qalır, geri dönə bilmir. Dahilərdən biri çox gözəl deyib ki, yaradıcı insan hansısa bir əsər üzərində işləyəndə hiss və duyğuları adi vaxtlardakından on dəfə yüksək olur. Doğrudan da, bu, elədir. Əgər belə olmasaydı, insanları heyrətə gətirən gözəl əsərlər də yaranmazdı.

Elə sənətkarlar da var ki, əsərlərində hansısa tanınmış birisinə oxşamağa çalışırlar. Bir növ onun çəkdiklərini, yazdıqlarını təkrar edirlər. Gedilmiş yolla addımlayırlar. Buna görə də özlərinin yaradıcılıq yolları olmur. Əzizbala deyir: "Mən heç bir rəssama oxşamaq, heç kimi təkrar etmək istəmirəm. Gərək sənət aləmində hər sənətkarın öz yolu, öz cığırı, öz yaradıcılığı olsun. Daha doğrusu, yaradıcılığı ilə, çəkdiyi bənzərsiz əsərləri ilə öz-özünə yol açsın. Məktəbini yaratsın, öz üslübünü dünyaya göstərsin. Sənətkar heç kimi təqlid etməməlidir. Çünki gedilən yollar çala-çökəkli olur. Bütün yaradıcı adamlar kimi, rəssamlar da özlərini yaradıcılıq axtarışlarında tapırlar. Düşünürəm ki, bütün sənətlərin inkişafına təkan verən üç əsas amil var: fantaziya, təcrübə və peşəkarlıq. Üçü bir yerdə birləşəndə böyük sənət əsərləri yaranır, sənətkar tanınır və daim sevilir".




### Yaradıcılıq yollarına düşən işıq

Rəssamla söhbət etdiyimiz vaxt həyətə bir uşaq gəldi. Əzizbala dedi ki, bu tələbələrindən biridir, qardaşının nəvəsi Yusif Dadaşzadədir: "Mən bu peşənin sirlərini uşaqlara da, gənclərə də öyrədirəm. Bundan başqa, beş nəfər də tələbəm var. Çalışıram ki, rəssamlıq sənətini onlara da aşılayım. Sevindiricidir ki, uşaqlar rəssamlıq sənətini həvəslə mənimsəyirlər. Bir də mənim üçün maraqlıdır ki, nədənsə son vaxtlar rəssamlığa oğlanlardan daha çox qızlar maraq göstərirlər. Amma düşünürəm ki, bunun o qədər də əhəmiyyəti yoxdur. Əsas odur ki, sənət yaşasın və yaşadılsın. Rəssamlığa olan sevgi, məhəbbət heç vaxt azalmasın, tükənməsin. Rəssamlığa gedən yollar gəlimli-gedimli olsun".

Əzizbala Dadaşovdan rəssamlıq sənətinin incəliklərini öyrənən Yusiflə söhbət edərkən öyrəndik ki, o, Bakıxanov qəsəbəsindəki 72 nömrəli məktəbin 7-ci sinfində oxuyur. 4 yaşından rəssamlıq sənətinin sirlərini öyrənir. Yusif həm rəsm əsərləri çəkir, həm metal üzərində döymə işləri görür, həm də dərslərini yaxşı oxuyur. Əmisi də işini bəyənir və onun gələcəyinə böyük ümidlər bəsləyir.

Rəssamın emalatxanasından gələn səslər kəsilmir. Burada aparılan yaradıcılıq işləri, axtarışlar heç vaxt dayanmır. Bir-birindən yaradıcı olan işıqlı fikirlər, düşüncələr ucuca duyulur. Çox keçmir ki, bu düşüncələrdən, fikirlərdən dəyərli və qiymətli əsərlər yaranır. Rəssamın əlində adi gördüyümüz metal hissəsi, kətan parçası bir müddətdən sonra böyük sənət əsərinə çevrilir. Bax, budur sənətkarlıq, bax, budur rəssamlıq, bax, budur yaradıcılıq!

Yenə də emalatxanadan asta-asta çəkic səsləri eşidilir. Rəssam Əzizbala Dadaşov metal lövhə üzərində yeni döymə işləri aparır, yeni əsərlər yaradır. Sənətkarın əlindən yeni əsər dünyaya boylanır. Yeni yaranan əsərlər isə rəssamın yaradıcılıq yollarına gur işıq salır. Əminliklə demək olar ki, bu işığın nuru, şöləsi heç vaxt tükənməyəcək. Bu şölələrdən onlarca, yüzlərlə yeni əsərlərin ideyaları doğulacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*İlham BABAYEV (fotolar),*
*"Azərbaycan"*

## Heydər Əliyevin yadigarı




**75 il öncə Sumqayıtın təməlini qoyanlar əsasən gənclər olmuşdur. Ötən əsrin 50-ci illərində keçmiş sovetlər ölkəsinin müxtəlif yerlərindən bura xeyli gənc gəlmişdi. Ona görə Sumqayıta gənclər şəhəri də deyirlər.**

Az bir zaman kəsiyində Sumqayıt təkcə SSRİ-də deyil, bütün dünyada tanınan sənaye şəhərinə çevrildi. Ulu Öndər hələ dövlət təhlükəsizlik orqanlarında çalışanda belə, bu şəhərə həmişə qayğı göstərmiş, ozamankı zavodların tikintisinə nümayəndə kimi nəzarət etmişdir.

1970-ci ildən isə Sumqayıt Ümummilli Lider Heydər Əliyevin böyük diqqəti nəticəsində inkişaf etməyə başlamışdır. Həmin illər tikilən zavodlar, salınan yaşayış massivləri o qədər sürətlə tikilirdi ki, şəhər günbəgün tanınmaz olurdu. Heydər Əliyev tez-tez Sumqayıta gəlir, şəhərin infrastrukturunun qurulmasına nəzarət edirdi.

Yeni salınan şəhərdə mədəniyyət ocaqlarının yaradılmasına Ulu Öndər xüsusi həssaslıqla yanaşmağı məsləhət görər, onların yerinin seçilməsində və tikintisində tövsiyələrini verərdi. Belə mədəniyyət saraylarından biri də Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Musiqili Dram Teatrının binasıdır (hazırda Sumqayıt Dövlət Dram Teatrı adlanır). Həmin teatrın binasının yeri məhz Heydər Əliyevin göstərişi ilə seçilmişdir. Bu gün şəhərdə nə qədər müasir, unikal binalar tikilsə də, yenə teatrın binası öz unikallığı ilə seçilir.

1969-cu ildən fəaliyyətə başlayan teatrın səhnəsində təkcə Azərbaycan deyil, dünya mütəfəkkirlərinin əsərləri də tamaşaya qoyulurdu. Sumqayıta səfər zamanı Ulu Öndər teatra gələr, aktyorlarla səmimi söhbət edərdi. Çox zaman tamaşa məşqlərinə baxar, tövsiyələrini verərdi. Bu, aktyorlara səhnə fəaliyyətlərində böyük stimul yaradardı.

Artıq uzun illərdir ki, həmin teatrın binasında, foyedə bir şəkil bura gələnlərin diqqətini xüsusi cəlb edir. Həmin şəkil uzun illərin xatirəsini bu günə daşıyan bir yadigardır. İnsan bu şəklə baxdıqca gözləri önündə Ulu Öndərin xatirəsi canlanır.

1981-ci ildə tamaşaya qoyulan əsərlərdən biri də Nəriman Həsənzadənin "Bütün Şərq bilsin" əsəri idi. Burada vətənpərvərlik, yenilik, gələcəyə inam ideyaları yer almışdı. Moskvada keçirilən tamaşanın premyerasında Heydər Əliyev də iştirak etmişdi. Tamaşa sona çatdıqdan sonra Ulu Öndər səhnəyə qalxıb aktyorlarla görüşmüşdü. Ümummilli Liderin səmimiyyətini zaldakılar ayaqüstə alqışlamışlar. Üzünü zala çevirən böyük rəhbər demişdi:

- Baxın, bizim necə gözəl əsərlərimiz var. Belə əsərlər xalqımızın parlaq simasını, nurlu gələcəyini əks etdirir. Məncə belə əsərlər çox yazılmalı, tamaşaya qoyulmalıdır. Nəinki Şərq, bütün bəşər Azərbaycan mədəniyyətinin nəyə qadir olduğunu görməlidir. Biz azərbaycanlılar buna qadirik və bunu edəcəyik.

Onu da bildirək ki, məhz bu tamaşadan sonra Ümummilli Liderin qayğısı nəticəsində Sumqayıt Dövlət Dram Teatrı səhnə əsərləri ilə hamını heyran etməyə başladı. Onlarla məşhur aktyor böyük sənətə buradan qanadlandı.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Professor Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" kitabının təqdimetmə mərasimi keçirilib

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında (BMA) dahi şair Məhəmməd Füzulinin 530 illiyi ilə əlaqədar professor Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" kitabının təqdimetmə mərasimi keçirilib.



Təqdimat mərasimində SSRİ və Azərbaycan Respublikasının Xalq artisti, Bakı Musiqi Akademiyasının rektoru, professor Fərhad Bədəlbəyli görkəmli şairin yaradıcılığının zənginliyindən danışıb, "Füzuli sənətkarlığı" kitabı haqqında fikir və düşüncələrini bölüşüb.

Tədbirin təşkilatçısı BMA-nın "Humanitar fənlər" kafedrasının müdiri, professor Tərlan Quliyev M.Füzulinin qəzəllərindən misal gətirib, Mir Cəlal Paşayevin dahi şairə həsr olunan kitabının əhəmiyyətindən söz açıb.

Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov, Azərbaycan Milli Məclisinin deputatı Ceyhun Məmmədov, Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru Şirin Məlikova və onun müavini, sənətşünaslıq üzrə fəlsəfə doktoru Aytən Əhmədli də Füzuli dühası, yaradıcılığı haqqında çıxış ediblər.

Tədbirin bədii hissəsində Əməkdar artist Nigar Məlikova, Xalq artisti, professor Xuraman Qasımovanın tələbəsi Səməd Novruzov, Prezident təqaüdçüsü Aqil Məlikov və Hüseyn Məlikov əsrarəngiz ifaları ilə dinləyicilərin zövqlərini oxşayıblar.

## Reza Deqati Azərbaycan həqiqətlərini əks etdirən fotolarını Mərakeşdə nümayiş etdirir



Mərakeşin paytaxtı Rabatın Milli Fotoqrafiya Muzeyində məşhur fotoqraf Reza Deqatinin "Müasir Odisey" adlı sərgisi açılıb.

Sərgidə 20 foto və 5 kitab nümayiş olunur. Qonaqlar burada foto sənəti dünyasının heyrətamiz nümunələrini yaxından kəşf edə bilirlər. Bu nümunələr o qədər təsirlidir ki, sanki dilə gəlib şəhidlərin qanı ilə yazılmış tarixin dərinliklərinə toxunan duyğulu hekayələr danışırlar.

Sərgidə R.Deqatinin Azərbaycanın azad olunmuş torpaqlarından, eləcə də Şirvanşahlar sarayı, Xınalıqdan çəkilmiş fotoları yer alır. Ağbirçək bir ananın itkisinə ağısını əks etdirən "Fəryad" adlı foto, eləcə də "Yanan ev", "Güllələnmiş heykəl" fotoları xalqımızın üzləşdiyi faciələr haqqında sərgi iştirakçılarında təsəvvür yaradır. Hər bir şəklin arxasında bir hekayə var. Bunu dünyaşöhrətli fotoqrafın əsərlərində daha aydın görmək olur. R.Deqati bu hekayələri sərgi ziyarətçilərinə çatdırmağa çalışır. Fotoqrafın obyektivinə tuş gəlmiş üzlərdəki emosiyalar, sarsıntılar müxtəlif insan taleləri haqqında dolğun təsəvvürlər yaradır.

Sərgi gələn il iyunun 30-dək davam edəcək. Sərginin açılışında Azərbaycanın Mərakeşdəki səfiri Nazim Səmədov iştirak edib.

# Məktublar: problemlər, rəylər, təkliflər...



● QÜRUR

## Kapitan Əbülfəz Rəhmətov vətənin əsgəri idi

**İkinci Qarabağ müharibəsində hünər göstərib adını tarixə yazan qeyrətli Vətən övladlarından biri də Lerik rayonunun Anbu kəndində boya-başa çatan şəhid kapitan Əbülfəz Rəhmətovdur.**

Hələ uşaq yaşlarında Vətəninə ürəkdən bağlanan, 31 yaşında canını ona fəda edən Əbülfəz Hüseynverdi oğlu Rəhmətov doğma kəndində orta məktəbi bitirib, 2006-cı ildə Heydər Əliyev adına Ali Hərbi Məktəbinə qəbul olunmuşdur. 2010-cu ildə məktəbi bitirib leytenant hərbi rütbəsi alan Əbülfəz elə həmin ildən cəbhə bölgəsində qulluğa başlamışdır. Sonrakı illər Əbülfəz Rəhmətov müxtəlif hərbi hissələrdə tağım komandirliyindən tabor komandirinədək yüksəlmiş və peşəkar, təcrübəli zabit kimi Azərbaycan Ordusunda ləyaqətlə, vicdanla xidmət etmişdir.



Kapitan Əbülfəz Rəhmətov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində kəşfiyyatçı və motoatıcı taborun qərargah rəisi kimi döyüşlərə qatılmışdır. Cəbrayılın, Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə böyük şücaət göstərən zabit 16 oktyabr 2020-ci ildə Cəbrayıl istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına həlak olmuşdur. Ə.Rəhmətov ölümündən sonra "Vətən uğrunda" və digər medallara layiq görülmüşdür.

***Zəfər ORUCOĞLU,***
***Lerik rayon sakini***

● ABADLIQ

## Artıq asudə vaxtı necə keçirmək haqqında düşünmürük

**Hacı Zeynalabdin Tağıyev qəsəbəsi Sumqayıtın böyük yaşayış massivlərindən biridir. Qəsəbədə müəyyən qədər yaşıllıq zolaqları olsa da, istirahət parkımız, gəzinti meydançalarımız yox idi. Doğrudur, qəsəbənin bir neçə yerində əhalinin istirahəti üçün kiçik yerlər ayrılmışdı. Lakin bu, kifayət etmirdi. Biz geniş, müasir park arzusunda idik.**



İndi artıq bu arzumuz gerçəyə çevrilib. Qəsəbəmizdə ürəyimizcə olan park salınıb. Ərazidə görülən bütün işləri günbəgün izləyirdik. Əvvəlcə park üçün ayrılmış ərazi kol-kosdan təmizləndi, sonra yerində ağaclar əkildi, oturacaqlar quraşdırıldı, ətrafına tamet düzüldü, parkı işıqlandırmaq üçün dirəklər basdırıldı. Qəsəbə sakinləri bütün bu işlərdə inşaatçılara kömək edirdilər.

İndi 1,5 hektar ərazidə salınmış parkımızda, necə deyərlər, hamıya yer var. Ən çox sevinən isə uşaqlardır. Burada onlar üçün müxtəlif əyləncə qurğuları quraşdırılıb. Hazırda havalar soyuq keçsə də, parka tez-tez gəlirik. Gəzirik, təmiz hava uduruq, ətrafdakı gözəllikdən zövq alırıq. Üzümüzə gələn yazda parkın yaşıllığı daha ürəkaçan olacaq. Çünki əkilən fidanlar böyüdükcə gözəllik də artacaq.

Biz bu parkın salınmasında zəhmət çəkənlərin hamısına minnətdarıq.

***İlhamə MƏHƏMMƏDQIZI,***
***Sumqayıt şəhəri H.Z.Tağıyev qəsəbəsinin sakini***

● MƏMNUNLUQ

## Səyyar görüş zamanı qaldırdığımız problem həll olundu

**Ölkəmizdə dövlət siyasətinin əsasını vətəndaş amili, vətəndaş məmnunluğu təşkil edir. Bunu kəndimizdə keçirilən səyyar görüş zamanı qaldırdığımız problemlərin həllində bir daha gördük.**



Görüş zamanı RİH-in başçısına bildirdim ki, rayonun "Alma bağı" adlanan ərazisində yaşayan sakinlərin keyfiyyətli elektrik enerjisi ilə təmin olunmasında problemlər var. Rayon icra hakimiyyətinin başçısı müraciəti dinlədikdən sonra aidiyyəti təşkilata göstəriş verdi və problemin qısa vaxt ərzində həll olunması üçün tədbirlər görməyi tapşırdı. Çox çəkmədi ki, problem həll edildi - əraziyə yüksəkgərginlikli elektrik transformatoru qoyuldu.

Hörmətli redaksiya! Biz kənd sakinləri səyyar görüş zamanı qaldırdığımız problemin müsbət həll olunmasını dövlətin öz vətəndaşlarına olan diqqəti kimi dəyərləndiririk. Bu bir də onu göstərir ki, səyyar görüşlərin keçirilməsinin arxasında vətəndaş məmnunluğunun təminatı dayanır.

***Kərəm NƏBİYEV,***
***Qazax rayonunun Hüseynbəyli kənd sakini***

● Fotoetüd

## Qızıl payız







*Artıq təbiət payızın son günlərini yaşayır. Çılpaq ağaclar, saralmış yarpaqlar, ara vermədən yağan yağışlar, küləklər qışın yaxında olduğunu xəbər verir. Günəş də az-az göründüyündən təbiətdə bir boz durğunluq yaşanır, nisbi sakitlik hökm sürür. Amma bu sükunətdən sanki bir səs gəlir: hazırlaşın, "ağ" fəslin gəlişinə çox qalmayıb.*

***Fotolar İlham BABAYEVİNDİR***

● TƏHSİL

## Kənd camaatı təşəkkür edir

**Bizim Çiçi kəndinin məktəb binası yararsız vəziyyətdə idi. Dərs otaqlarında hər cəhətdən şəraitsizlik hökm sürürdü. Bu səbəbdən çiçililərin bir çoxu uşaqlarını qonşu kənd məktəbinə göndərirdi. Qonşu kəndə gedib-gəlmək isə asan deyildi.**

Nəhayət ki, kəndimizdə məktəb üçün yeni modul tipli bina inşa edildi. 126 şagirdlik bina birmərtəbəli olmaqla 9 sinif və müəllimlər otağı, kitabxana, laboratoriyadan ibarətdir. Məktəbin həyətində mini-idman meydançası quraşdırılıb. Çiçili gənclər idmanı çox sevirlər. Belə idman meydançası onların vaxtının səmərəli keçməsi, pis vərdişlərdən uzaq olması deməkdir.

Bir sözlə, yeni məktəb bütün çiçililərin sevincinə səbəb olub. Artıq uşaqlarımız təhsil almaq üçün başqa kəndlərə üz tutmurlar. Onu da bildirim ki, məktəbimizin müəllimlərinin hamısı təcrübəli pedaqoqlardır, şagirdlərə qayğı ilə yanaşırlar.

Çiçi məktəbi şəhid qardaşım Dəyanət İsmayılovun adını daşıyır. Bu baxımdan məktəb üçün yeni binanın inşası həm də ailəmizə və bütün şəhidlərə verilən böyük dəyərdir.

***Günəş HACIYEVA,***
***Quba rayonunun Çiçi kənd sakini***



● MİNNƏTDARLIQ

## Problemimiz operativ həll edildi

**Yerlərdə vətəndaş müraciətlərinə obyektiv baxılması və vətəndaş məmnunluğunun təmin edilməsi ilə bağlı dövlət səviyyəsində verilən tapşırıqların icrasına Qazax rayonunda da operativ və həssas yanaşılır. Xüsusən şəhid ailələri və müharibə iştirakçılarının sosial qayğılarının öyrənilməsi və həlli daim diqqətdə saxlanılır.**

Elə bu yaxınlarda rayon icra hakimiyyətinə etdiyim müraciət də qısa müddət ərzində öz həllini tapdı. Müraciətimdə yaşadığım evə kanalizasiya xəttinin çəkilişinə kömək göstərilməsini xahiş etmişdim. Sağ olsunlar, RİH başçısının tapşırığı əsasında 8 nömrəli Regional Sukanal İdarəsinin Qazax Sukanal sahəsinin rəisi Alı Hüseynovun iştirakı ilə evimə baxış keçirdilər və qısa vaxtda yeni kanalizasiya xətti çəkildi.

Hörmətli redaksiya! Vətəndaşların müraciətlərinə diqqətlə yanaşıb, onların problemlərinin həllinə çalışan bütün qurumlara ailəmiz adından minnətdarlığımı bildirirəm.

***Ziba MƏMMƏDOVA,***
***Qazax rayonunun Azadlıq küçəsi, 99 nömrəli evin sakini***

● RAZILIQ

## Təbii qaz sarıdan biz də rahatlığa çıxdıq



**Xeyli müddət idi ki, yazmadığımız, şikayət etmədiyimiz yer qalmamışdı. Səbəbi yaşadığımız Tovuz rayonunun Əyyublu kəndinin bir hissəsində qazın olmaması idi.**

Nəhayət, "Azəriqaz" İstehsalat Birliyi insafa gəlib yaşadığımız əraziyə qaz çəkdi. İndi evlərimizdə alovlanan mavi yanacaq bizə istilik və rahatlıq gətirib. Qazın təzyiqi də yüksəkdir. Şükürlər olsun ki, hələlik heç bir problemimiz yoxdur.

Hörmətli redaksiya! Xahiş edirik, bu soyuq havalarda bizə bu rahatlığı bəxş edənlərə kənd sakinlərinin minnətdarlığını çatdırasınız.

***Abil RÜSTƏMOV,***
***Tovuz rayonunun Əyyublu kənd sakini***

● İNFRASTRUKTUR

## Yeni körpünün inşasını gözləyirik

**Bizim Məşədilər kəndi Tovuzun dağətəyi zonasında yerləşir. Kəndi rayon mərkəzi ilə yalnız bir körpü birləşdirir.**

Zəyəm çayı üzərində dəmir konstruksiya ilə düzəldilmiş həmin körpü də sel suları üzündən yararsız hala düşmüşdür. Amma başqa yolumuz olmadığına görə həmin qəzalı körpüdən istifadə etməyə məcburuq. Son günlər aramsız yağan yağışların yaratdığı təbii fəlakət körpünü daha da qəzalı vəziyyətə salmış, körpünün bir hissəsini tamamilə dağıtmışdır.

Kənd sakinləri tərəfindən vəziyyətlə bağlı Tovuz Rayon İcra Hakimiyyətinə müraciət olunmuşdur. İcra hakimiyyətindən kənd sakinlərinə bildirilmişdir ki, körpünün vəziyyəti ilə bağlı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə müraciət edilmişdir. Agentlik də əraziyə baxış keçirmiş, körpünün bərpası üçün layihə-smeta sənədlərini hazırlamışdır. Deyirlər ki, yaxın günlərdə yeni körpünün salınması üçün işlərə başlanacaq. Bizim də həmin günü səbirsizliklə gözləməkdən savayı çarəmiz yoxdur.

***Süleyman İBRAHİMOV,***
***Tovuz rayonunun Məşədilər kənd sakini***



● UĞUR

## SDU-nun tələbələri beynəlxalq müsabiqənin qalibi olmuşlar

**Kazan Dövlət Energetika Universiteti tərəfindən keçirilən "Bəşəriyyətin qlobal problemləri: insan, təbiət, texnologiya" mövzusunda III Beynəlxalq Esse müsabiqəsinin nəticələri açıqlanıb.**



Müsabiqədə respublikamızı Sumqayıt Dövlət Universitetinin tələbələri təmsil ediblər.

Müsabiqə ingilis, alman və fransız dillərində üç bölmə üzrə təşkil olunmuş və 61 beynəlxalq universitetdən ümumilikdə 612 iştirakçı qatılmışdır. Gərgin keçən müsabiqədə Sumqayıt Dövlət Universitetinin Filologiya və Mühəndislik fakültələrinin 3 tələbəsi qalib olmuşlar. I dərəcəli diploma Filologiya fakültəsinin tələbəsi Xumar Rzayeva, II və III dərəcəli diploma Mühəndislik fakültəsinin tələbələri Orxan Əhədzadə və Fuad Tərlanzadə layiq görülmüşlər.

Onu da bildirək ki, tələbələrin layihələri müxtəlif dillərə tərcümə edilərək müsabiqədə iştirakçı universitetlərə göndərilmişdir.

***A.ƏLİYEV,***
***Sumqayıt şəhəri***

● ŞİKAYƏT

## Səsimizi eşidən yoxdur

**Hörmətli redaksiya, Bərdədə hər kəsi narahat edən problemlərdən söz açmaq istəyirəm. Öncə qeyd edim ki, rayon elektrik şəbəkəsinin rəhbərliyi tez-tez dəyişir. Amma kadrlar yenilənsə də, vəziyyət dəyişmir.**

İndi payızdır, havalar soyuyub, tez-tez yağış yağır. Göy üzünə bulud gələn, bir balaca külək əsən kimi işıqları söndürürlər. İşığın tez-tez yanıb-sönməsi əsəblərimizi də oynadır. Artıb-azalan gərginlik məişət avadanlıqlarımızı sıradan çıxarır. Yaxşı ki, təbii qazın verilməsində fasilələr olmur, yoxsa işimiz lap "düzələrdi".

Bərdə şəhər sakinlərini, eləcə də qonaqları digər bir məsələ də çox narahat edir. Şəhərimizdə ictimai sanitar-qovşaq problemi var. Bununla bağlı şəhər bələdiyyəsinə dəfələrlə müraciət olunsa da, heç bir nəticə yoxdur.

Başqa bir problem isə sahibsiz itlərlə bağlıdır. Təəssüf ki, şəhərimizdə yiyəsiz itlərin sayı sürətlə artmaqdadır. Şər qarışan, qaranlıq düşən kimi küçələrə itlər "sahiblik" edir. Qadınlar, uşaqlar onların qorxusundan küçəyə çıxmaq istəmirlər. Bilmirik ki, dərdimizi kimə deyək. Hansı ünvana üz tuturuq, deyirlər bizlik deyil.

Hörmətli redaksiya, Bərdə şəhər sakinləri adından xahiş edirəm ki, səsimizin rayonun əlaqədar təşkilatlarına çatmasında bizə yardımçı olasınız.

***Faiq QARAŞOV,***
***Bərdə rayon sakini***

**İlə yekun vurulur**

# Ənənəvi sahələrdən moruqçuluğacan...

Kəndli üçün təqvim ili şərti xarakter daşıyır. Əgər toxum bu il səpilib məhsulu gələn il biçilirsə, burada hansı təqvim ilindən söhbət gedə bilər?!









Yaxud cari ilin payızından başlayan məhsul yığımı yeni ilin ilk aylarında davam edirsə, dekabrda hansı nəticə barədə danışmaq olar?! Ona görə də kənd adamı üçün mövsüm olur, məsələn, biçin mövsümü, meyvə mövsümü, bostan mövsümü və s. Amma bütün hallarda il ildir və ona yekun vurmaq lazımdır.

Hazırda Göygöl rayonunun kənd təsərrüfatına yararlı torpaq sahəsi 58 min 652, o cümlədən əkinəyararlı torpaq sahəsi 13 min 27 hektardır. Mövcud əkin sahələrinin 7441 hektarı suvarılan, 5586 hektarı dəmyə ərazilərdir. Həmin torpaq sahələrinin 9614 hektarında taxıl, tərəvəz, bostan, çoxillik və yem bitkiləri əkilir.

Rayonda taxılçılıq ənənəvi sahədir. 2023-cü ildə bu ilin məhsulu üçün 4382,5 hektarda dənli bitkilərin əkini aparılmışdır. Onun 2310,5 hektarı buğda, 2016,5 hektarı arpa, 55,5 hektarı isə xəsil olmuşdur. Cari mövsüm 431,7 hektar taxıl sahəsindən 12328 ton məhsul yığılmışdır. Məhsuldarlıq ötən mövsümə nisbətən 12 sentner artmışdır. Hazırda gələn ilin məhsulu üçün əkin işləri aparılır. İndiyəcən 5228 hektarda payızlıq şum qaldırılmış, 4407 hektarda payızlıq taxıl səpini aparılmışdır. Onun 2507 hektarı buğda, 1870 hektarı arpa, 30 hektarı xəsildir.

Bu il həmçinin rayon üzrə 488 hektarda tərəvəz, 322 hektarda kartof, 20,2 hektarda şəkər çuğunduru, 539 hektarda dən üçün günəbaxan, 57 hektarda dən üçün yazlıq qarğıdalı, 83,5 hektarda yem üçün qarğıdalı, 40 hektarda darı və 421,7 hektarda yem bitkiləri əkilmişdir. Bundan əlavə, rayon ərazisində 718,7 hektar üzüm, 806,4 hektar meyvə və 138,5 hektar giləmeyvə bağları var. Məhsula gəldikdə, sahə və bağlardan 3094 ton kartof, 4881 ton tərəvəz, 4184,6 ton meyvə və 178,4 ton giləmeyvə yığılmışdır.

Göygöl rayonunda taxıl əkini sahələrinin suvarılması əsasən Gəncə çayı, Kürəkçayı, Qoşqar çayı və "Şəmkirçay" su anbarı, eləcə də 20 kənd ərazisindəki subartezian quyuları vasitəsilə həyata keçirilir. Yeri gəlmişkən qeyd edək ki, rayondakı 220 subartezian quyusunun 50-si bilavasitə əkin, o cümlədən taxıl sahələrinin suvarılmasında istifadə olunur. 45 subartezian quyusu isə həm məişətdə, həm də suvarmada əhalinin dadına çatır. Qalan 125 subartezian quyusu kommunal məqsədlə istifadə olunur.

Kənd təsərrüfatı məhsullarının yetişdirilməsində və yığılmasında istifadə olunan texnika rayonun özününküdür. Bu gün Göygölün təsərrüfatlarında 17 taxılbiçən kombayn, 48 şum traktoru, 48 kotan, 34 toxumsəpən,10 gübrəsəpən, 11 çiləyici, 2 kartofsəpən və digər texnikalar mövcuddur. Bundan əlavə, rayonda "Aqroservis" ASC-nin Şəmkir Regional Nümayəndəliyinin Göygöl-Daşkəsən bölməsi də fəaliyyət göstərir.

Göygöl təbiəti və iqlim şəraiti sarıdan heyvandarlığın inkişafı üçün əlverişli rayondur. Dağlıq və dağətəyi ərazi, mülayim iqlim burada heyvandarlığın inkişafı üçün geniş imkanlar açır. İnsafən, rayon heyvandarları da bu imkanlardan səmərəli istifadə etməyi bacarırlar. Onlar hətta kənd təsərrüfatı və heyvandarlıq sahəsində bilik və bacarıqlarını artırmaq üçün təlim və seminarlarda iştirak edirlər. Statistikaya gəldikdə, hazırda rayonda 20,2 min baş qaramal (o cümlədən 100 min baş ana inək), 115,2 min baş qoyun-keçi, 157 min baş müxtəlif növ ev quşları və 8605 arı ailəsi var. Mövsüm ərzində ət istehsalı 2794,8, süd istehsalı 21901,2, yun istehsalı 166 ton olmuşdur.

Göygöldə mal-qaranın cins tərkibinin yaxşılaşdırılması üçün süni mayalanmanın əhəmiyyəti geniş təbliğ olunur. Rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin mütəxəssisləri bu məqsədlə heyvandarlar arasında tez-tez maarifləndirmə işləri aparırlar. Nəticə olur. Cari ilin 9 ayı ərzində 1574 baş inək və düyə süni yolla mayalandırılmış, süni mayalanma yolu ilə 760 baş bala alınmışdır ki, bu da əvvəlki illərə nisbətən xeyli çoxdur.

Son illər rayonda moruqçuluğa maraq xeyli artıb. Hətta bu il ilk dəfə olaraq rayonun dağlıq ərazisində yerləşən Köşkü kəndində Moruq festivalı keçirilib. Festivalda 50 mindən artıq yerli və xarici qonaq iştirak edib. Tədbirin keçirilməsi həm də rayonda turizmin inkişafına təkan verib. İndi Göygöldə kənd turizminin inkişafı üçün geniş imkanlar açılıb.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**

**Nə qədər ki Azərbaycan var, Mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!**


AZƏRBAYCAN
Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevlə bağlı paylaşım edib
İstiqlalın bayraqdarı
Azərbaycanda müxtəlif dini və etnik konfessiyaların nümayəndələri sülh və əmin-amanlıq şəraitində yaşayırlar
Xalqının qəlbində yaşayan şəxsiyyət
Heydər Əliyevin milli yaddaş siyasəti

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

**ASCO-nun struktur idarələrinə tələb olunan məişət avadanlıqlarının və mərkəzləşdirilmiş kondisioner sistemlərinə illik texniki xidmətlərin satın alınması məqsədilə**

***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 20 dekabr 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***


# Hərbi Hava Qüvvələrində voleybol üzrə birincilik keçirilib

Cari ilin hazırlıq planına əsasən, Hərbi Hava Qüvvələrində (HHQ) hərbi qulluqçular arasında voleybol birinciliyi keçirilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, birinciliyin açılış və bağlanış mərasimlərində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub. Çıxış edənlər qalib komandaları təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb, hərbi qulluqçuların fiziki hazırlığının yüksək səviyyədə saxlanılmasında bu cür idman yarışlarının əhəmiyyətini xüsusi vurğulayıblar.

Bildirilib ki, HHQ-nin müxtəlif hərbi hissələrini təmsil edən komandalar birincilikdə inamla mübarizə aparıblar.

Maraqlı keçən yarışlar nəticəsində qalib komandalar mükafatlandırılıblar.

# Bu gün qar yağacaq

Dekabrın 13-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, gecə və səhər bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, gecə yarımadanın bəzi yerlərində qısamüddətli leysan xarakterli olacağı ehtimalı var. Şimal-qərb küləyi gecəyə doğru arabir güclənəcək. Havanın temperaturu gecə 6-8°, gündüz 8-11° isti olacaq. Atmosfer təzyiqi 757 millimetr civə sütunu, nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gündüz yağıntıda fasilə olacağı güman edilir. Arabir duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 2-7° şaxta, gündüz 4-8° isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhəri, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy, Göygöl rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gündüz yağıntıda fasilə olacağı güman edilir. Arabir duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 0-5° şaxta, gündüz 1-6° isti olacaq.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gündüz yağıntıda fasilə olacağı proqnozlaşdırılıb. Arabir duman olacağı, qərb küləyinin ayrı-ayrı yerlərdə arabir güclənəcəyi güman edilir. Havanın temperaturu gecə 0-4° isti, dağlıq ərazilərdə 6° şaxta, gündüz 5-8° isti, dağlıq ərazilərdə 2° şaxta olacaq.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarının bəzi yerlərində havanın əsasən gecə və axşam arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək, arabir duman olacaq. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-9° isti olacağı güman edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman, səhər qərb rayonlarında isə yağıntıda fasilə olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 4-9° isti, dağlarda gecə 3-8°, gündüz 0-3° şaxta olacağı proqnozlaşdırılır.

Mingəçevir və Şirvan şəhərləri, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı ehtimalı var. Arabir duman, gündüz yağıntıda fasilə olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 1-5°, gündüz 7-12° isti olacağı güman edilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman, axşama doğru isə yağıntıda fasilə olacaq. Şimal-şərq küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 3-6°, gündüz 7-12° isti, dağlarda gecə və gündüz 3-6° isti olacaq.

# İnfarkt yaşı gəncləşib

Ölümün əsas səbəblərindən biri ürək-damar xəstəlikləridir. Bu xəstəlikdən hər il 20,5 milyon, hər 15 saniyədə 1 nəfər dünyasını dəyişir. Əsas risk amilləri qan təzyiqinin yüksəlməsi, qanda xolesterinin və qlükozanın miqdarının artması, siqaret çəkmək, artıq çəki, piylənmə, fiziki hərəkətsizlik, qida rasionu və qeyri-müntəzəm yuxu rejimidir.

Əvvəl daha çox yaşlılara xas xəstəlik olan infarkt artıq 30 və hətta 20 yaşlarında insanlar arasında müşahidə edilir və bu ciddi şəkildə artır. Son araşdırmalar göstərir ki, dünyada ürək xəstəlikləri təxminən 15 il cavanlaşıb. Mütəxəssislər bildirirlər ki, gənclərdə damar inkişafı tamamlanmadığı üçün infarkt birbaşa həyati itkilərə səbəb ola bilər. Belə ki, yaşlandıqca damarlar arasında "körpü damarları" əmələ gəlir. Bu vəziyyətdə hər hansı damar tıxanması halında digər damardan qan alınaraq ürək qidalanmağa davam edir. Gənclərdə belə bir quruluş formalaşmadığı üçün böhrana hazır olmayan ürək bir anda dayanır.



Ürək-damar xəstəliklərindən qorunmağın mümkün olduğunu bildirən kardioloqlar dəyişdirilə bilən risk faktorlarına diqqət çəkir, gündəlik həyat tərzində müəyyən dəyişikliklər edərək infarkt riskini minimuma endirməyin mümkünlüyünü qeyd edirlər. Xəstəliyin baş verməden qarşısını almaq üçün mütəmadi olaraq tibbi müayinədən keçmək həyati əhəmiyyət daşıyır. 30 yaşından başlayaraq ildə bir dəfə qan testi verərək xolesterin, qan şəkəri və qan təzyiqi dəyərlərinin yoxlanılması ürək-damar xəstəliklərinin erkən diaqnozunda mühüm rol oynayır.

Ürək sağlamlığının qorunmasında müntəzəm yuxu rejiminin də vacib olduğu bildirilir. İndiyədək elə düşünülürdü ki, sutkada minimum 8 saat yatmaq sağlamlığın önəmli təminatıdır. Son araşdırmalarda isə məlum olub ki, yuxunun müddəti qədər yatmaq və oyanmaq vaxtı da önəmlidir. "Journal of Epidemiology and Community Health" jurnalında dərc olunan araşdırmaya görə, yuxu müddəti adekvat olsa belə yuxu və oyanma vaxtlarının dəyişməsi ürək-damar sisteminin mənfi nəticələri ilə əlaqələndirilir. Tədqiqata rəhbərlik edən Ottava Universitetinin professoru Cin Filip Çaput deyir ki, hər gün yatmaq vaxtı ilə oyanma vaxtı arasında 30 dəqiqədən çox fərq olmamalıdır. Belə ki, yuxu vaxtını dəyişdirmək daxili saatı poza, ciddi sağlamlıq problemlərinə səbəb ola bilər.

Tədqiqat zamanı 40-79 yaş arası təxminən 75 min insanın yuxu vərdişləri qeydə alınaraq yuxu nizamlılığı ilə ürək sağlamlığı arasındakı əlaqə araşdırılıb. İştirakçılara bir həftə ərzində fəaliyyətlərini qeyd edən cihazlar quraşdırılıb və onlar yuxu nizamlılığı indeksinə (SRI) görə qruplara bölünüblər. Araşdırma nəticəsində müəyyən edilib ki, nizamsız yatanların infarkt və ya insult keçirmə ehtimalı nizamlı yatanlara nisbətən 26 faiz çoxdur. Tədqiqat nizamsız yatanların yalnız 48 faizinin tövsiyə olunan yeddi-doqquz saat yuxuya cavab verdiyini, adi yatanların isə 61 faizinin olduğunu ortaya qoyub. Amma nizamsız yatanlar kifayət qədər yuxu alsalar belə infarkt və insult riskindən qaça bilməyiblər. Digər tərəfdən, orta dərəcədə nizamsız yatanlar kifayət qədər yuxu aldıqlarında riskin azaldığı aşkar edilib.

Aparılan digər bir araşdırma nəticəsində müntəzəm yuxu rejiminə yalnız iş günləri deyil, hətta həftə sonları belə riayət etməyin vacibliyi müəyyən edilib. Avropa Kardiologiya Cəmiyyətinin iclasında təqdim edilən nəticələrə görə, həftəsonları əlavə yuxu alan insanların ürək xəstəliyi riski 20 faizə qədər azalıb.

İdmanla mütəmadi məşğul olmağın insanın ürək-damar sağlamlığına müsbət yöndə ciddi təsir etdiyi bildirilir. Kardioloqlar 30 dəqiqə olmaqla həftənin minimum 5 günü idmanla məşğul olmağı tövsiyə edirlər. İdmanı nə vaxt etmək barədə xüsusi qayda olmasa da, səhərlər idman etmək məsləhət görülmür. Çünki ürək problemləri və ani hipertonik krizlər əsas etibarilə səhər saatlarında olur. Axşam yeməyindən 2 saat əvvəl, diabet xəstələrinə axşam yeməyindən 2 saat sonra idman etmək tövsiyə olunur.

Fiziki aktivliklə mütəmadi məşğul olmaq lazımdır. Müntəzəm idman etmədikdə və oturaq həyat sürdükdə həftədə bir dəfə oynanılan oyunlarda yüksək adrenalin ifrazı yaşanır və bu da infarkta səbəb olur. Elə buna görə də həftədə bir və ya iki dəfə oynanılan futbol və basketbol kimi rəqabətli idman növləri gənc idmançılar üçün daha çox risk daşıyır.

Hərəkət zamanı döş sümüyü arxasında ağrı, sıxılma hissi olan və xüsusilə 45 yaşdan yuxarı insanlar idman etməyə başlamazdan əvvəl mütləq həkim müayinəsindən keçməlidirlər. Çünki ürək damarlarında problemi olanlar idman edərkən infarkt və ya ani ölüm keçirə bilərlər.

Qış aylarında ürək sağlamlığına xüsusi diqqət ayırmaq lazımdır. Belə ki, bu mövsüm ürək üçün kritik dövr hesab edilir. Soyuq hava istilik itkisinin qarşısını almaq üçün bədənin qan damarlarının daralmasına, nəticədə qan təzyiqinin artmasına və ürəyin daha çox işləməsinə səbəb olur.

Təzyiqi mütəmadi ölçmək, xolesterin və şəkəri yoxlamaq olduqca vacibdir. Ümumdünya Ürək Federasiyasının məlumatına görə, sağlam həyat tərzi keçirmək, tütün istifadəsini məhdudlaşdırmaq, qidalanmanı nəzarətdə saxlamaq və fiziki fəallığı artırmaq hesabına infarkt nəticəsində baş verən erkən ölüm hallarının qarşısını 80 faiz almaq olar. Ürək sağlamlığını qorumaq üçün kiçik tədbirlər böyük fərq yarada bilər.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4233**
**Sifariş 2847**

**Qiyməti 60 qəpik**